26 iyun 2024 №46 (2111)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Ordum var – yurdum var...



### 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günüdür

Ordum varsa, yurdum var. Nə qədər patetik səslənsə də, əslində, bu məşhur ifadə böyük bir gerçəyin təsdiqidir.

106 il əvvəl də Azərbaycanda Milli Ordu yeni qurulan milli dövlətin özünütəsdiqi üçün ən başlıca şərt idi. 1918-ci ilin 28 mayında bəyan edilən istiqlalın bütün ölkə ərazisində qələbəsini o təmin edə bilərdi. Təbii ki, dar gündə dadımıza çatan qardaşın köməyi ilə...

1918-ci il iyunun əvvəlində Şaumyanın başçılıq etdiyi "Bakı Komissarları Soveti" 20 minə yaxın döyüşçü ilə Cümhuriyyətə qarşı savaşa başlamışdı. İlk məqsəd Milli Hökumətin Tiflisdən Gəncəyə köçməsinə mane olmaq idi. Buna nail olmadılar. Osmanlının beşinci diviziyası (Qafqaz diviziyası) Gümrü-Dilican-Ağstafa yolunu döyüşlə keçərək Gəncəyə gəlib çıxdı və şəhərdə əmin-arxayınlığı təmin etdi.

İyunun 16-da Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumət Tiflisdən Gəncəyə köçdü. İyunun 26-da isə Nazirlər Şurası ilk hərbi korpusun (diviziya statusunda) yaradılması barədə qərar qəbul etdi. Keçmiş çar ordusunda general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman korpusu əsasında Milli Ordunun təməli qoyuldu.

Azərbaycan milli korpusunun və Osmanlının beşinci diviziyasının birləşmiş qüvvələri (Qafqaz İslam Ordusu) Nuru paşanın komandanlığı altında Gəncədən Bakıya zəfər yürüşünə başladı. İki ay yarım sürən qəhrəmanlıq yolu sentyabrın 15-də Bakının azad edilməsi ilə yekunlaşdı. Bu döyüşlərdə Azərbaycan və Osmanlı qoşunları ümumilikdə 4 mindən çox (o cümlədən türk hərbçilər 1130 nəfər) şəhid vermişdi...

***

1992-ci ildə Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsi başlayanda da düşmənə cavab verəcək Ordu lazım idi. Torpaq uğrunda ölümə gedən minlərlə oğul vardı, bu yolda canlarını fəda etdilər. Amma torpağı qoruya bilmədik. Çünki nə dövlətin gerçək rəhbəri, nə də Ordunun komandanı vardı.

davamı səh. 2-də

## Günəşli Bakıda Rusiya Mədəniyyəti Günləri

### "Gördüyümüz isti münasibət həm də azərbaycanlıların qəlbindən gələn hərarətdir"

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 23-25 iyun tarixlərində Bakıda Rusiya Mədəniyyəti Günləri keçirilib.

İyunun 24-də Heydər Əliyev Sarayında Rusiya Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi və "Rus klassikası" adlı qala-konsert təşkil olundu.

Konserti iki ölkənin rəsmiləri, mədəniyyət xadimləri, sənətsevərlər izləyirdilər.

Tədbirdən öncə mediaya müsahibə verən Rusiya mədəniyyət nazirinin müavini Andrey Malışev deyib: "Mən uzun müddətdir gözəl Bakıya gəlməmişdim. Ötən zaman ərzində şəhər daha da gözəlləşib. Bütün artistlər buradakı gözəl, mehriban və səmimi atmosferi qeyd edirlər. Gördüyümüz isti münasibət təkcə havadan deyil, azərbaycanlıların qəlbindən gələn hərarətdir. Bu gün biz Azərbaycanda 2019-cu ildən sonra növbəti Rusiya Mədəniyyəti Günlərini açırıq. Çox ümid edirəm ki, yenidən başladığımız bu iş bundan sonra da davam etdiriləcək və ənənəvi olaraq hər il keçiriləcək".

Gələn il Rusiyada Azərbaycan Mədəniyyəti Günlərini təşkil edəcəklərini bildirən qonaq bu il üçün də müxtəlif layihələrin nəzərdə tutulduğunu deyib: "Rusiya teatrları Azərbaycana gələcək. Ümid edirəm ki, təkcə Bakıya deyil. Eyni zamanda kino sahəsində tədbirlərin, sərgi layihələrinin keçirilməsi də planlaşdırılır. Əminəm ki, mədəniyyət sahəsində əməkdaşlıq əlaqələrimiz yüksək səviyyədə davam etdiriləcək".

***








Rus klassik musiqisinin həvəskarları ilə dolub-daşan Heydər Əliyev Sarayında əvvəlcə Rusiya mədəniyyət nazirinin müavini səhnəyə dəvət olundu. Andrey Malışev nümayəndə heyətinin səmimi qarşılanmasına və Rusiya Mədəniyyəti Günlərinin keçirilməsinə dəstəyinə görə Azərbaycan Respublikası Hökumətinə təşəkkürünü bildirdi.

davamı səh. 3-də

## Musiqi və incəsənət məktəblərinə şagird qəbulu: şəffaf və aşkar

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə 2024/2025-ci tədris ili üzrə şagirdlərin qəbul imtahanları keçirilir.

Bu il vətəndaşların rahatlığı üçün ilk dəfə olaraq imtahanlar mərkəzləşdirilmiş qaydada təşkil edilir. Şəffaflığı təmin etmək məqsədilə qəbul imtahanlarının fərdi qaydada videoqeydiyyatı da aparılır.

20-30 iyun tarixlərini əhatə edən imtahanlar paytaxtımız üzrə Bakı Xoreoqrafiya Akademiyasında (BXA) keçirilir.

İlk dəfə vahid elektron qəbul sistemi ilə qeydiyyatdan keçmiş namizədlər əyani şəkildə reallaşan



imtahanlarda iştirak edirlər. Ümumilikdə 16280 nəfər elektron qeydiyyatdan keçib. Onlardan 4167 nəfəri Bakı şəhəri üzrə məktəblərə qəbul üçün müraciət edənlərdir.

Tətbiq edilən bu yeni yanaşma mədəniyyət təhsili sahəsində həyata keçirilən islahatların vacib elementidir. Musiqi və incəsənət məktəblərinə qəbulun elektronlaşdırılması və qabiliyyət imtahanlarının vahid məkanda aparılması şəffaf qiymətləndirmə, vətəndaş məmnuniyyəti və zamana qənaət baxımından əlverişlidir.

davamı səh. 2-də

## Prezident hərbi qulluqçularla bağlı sərəncamlar imzalayıb

Prezident İlham Əliyevin 25 iyun tarixli sərəncamı ilə ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Natiq Səlim oğlu Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adı (ölümündən sonra) verilib.

Qeyd edək ki, Natiq Qasımov Birinci Qarabağ müharibəsi zamanı (1992) altı nəfər döyüş yoldaşını itirdikdən sonra beş gün ərzində təkbaşına mühasirədə qalıb və sonra əsir götürülərək qətlə yetirilib.

Dövlət başçısının digər sərəncamı ilə bir qrup hərbçi 3-cü dərəcəli "Rəşadət" ordeni, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Prezident həmçinin Müdafiə Nazirliyinin hərbi qulluqçularına "general-leytenant" (1 nəfər) və general-mayor (2 nəfər) ali hərbi rütbələrinin verilməsi haqqında da sərəncam imzalayıb.

## Birinci Qarabağ müharibəsində itkin düşmüş daha 20 nəfərin şəxsiyyəti müəyyən olunub

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan Azərbaycan Respublikasının Baş Prokurorluğu, Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-Tibb Baş İdarəsi, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun mütəxəssis heyəti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş daha 20 nəfərin şəxsiyyəti müəyyən olunub.

Eyniləşdirmənin nəticələri ilə bağlı iyunun 25-də Dövlət Komissiyasının İşçi qrupu tərəfindən itkin ailələri ilə görüş təşkil olunub. Həmin şəxslərin dəfn mərasimlərinin təşkili ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri işlər həyata keçirilir.

## "Gənclərdən gənclər üçün"

### "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşada daha bir forum



Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) birgə təşkilatçılığı ilə 25–27 iyun tarixlərində "By Youth For Youth" ("Gənclərdən gənclər üçün") adlı Beynəlxalq Forum keçirilir.

Forum öz işinə iyunun 25-də "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşada başlayıb.

Tədbirin məqsədi İslam dünyası gənclərinin sülhyaratma, davamlı inkişaf, mədəniyyət, ətraf mühitlə bağlı baxış və təcrübələrini müzakirə etmək, bu sahədə onların iştirakına, innovativ həllərin müzakirəsinə və gənc liderlərin şəbəkələşməsinə imkan yaratmaqdır.

Forumda dövlət rəsmiləri, beynəlxalq təşkilatların və bir sıra ölkələrin yüksəkvəzifəli şəxsləri, ICESCO-ya daxil olan ölkələrdən 200-ə yaxın şəxs iştirak edir.

davamı səh. 2-də

## Savaşdan qalib çıxanların himni



Dmitri Şostakoviçin 7-ci simfoniyası hücuma məruz qalmış ölkədə savaşın bitməsindən hələ çox əvvəl (!) ərsəyə gələn, döyüş ruhunu, qələbə əzmini ən dolğun çatdıran, bəlkə də, ən böyük əsərdir.

Bəstəkar 7-ci simfoniyanı 1941-ci ildə qələmə alıb.

Biz müharibəni görmüş, canımızla, qəlbimizlə hiss etmiş xalqıq.

Biz savaş itkilərinin ürəyimizdə açdığı yarası hələ qaysaq tutmamış xalqıq. Nə gözəl ki, həm də qalib xalqıq. Bu üzdən Dmitri Şostakoviçin 7-ci simfoniyası həm də bizim yaxın tariximizin musiqi dilində söylənilən hekayəsi ola bilər.

səh. 5

Vyanada Tofiq Əhmədova həsr olunmuş konsert

səh. 2






Mədəniyyətimiz radio dalğalarında

səh. 2



Bülbülün anadan olmasının ildönümü münasibətilə

səh. 5

№46 (2111)
26 iyun 2024
www.medeniyyet.az

# Dövlət qulluqçuları təltif edilib

2003-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən 23 iyunun "Dövlət qulluğu günü" elan olunması barədə qətnamə qəbul olunub və dünya dövlətlərinə bununla bağlı çağırış edilib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə (25 may 2006-cı il) əlamətdar gün Azərbaycanda da qeyd edilir.

Prezident hər il bu gün münasibətilə dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayır.

Dövlət başçısının 24 iyun 2024-cü il tarixli sərəncamı ümumilikdə 216 nəfərə şamil olunub. O cümlədən 2 nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, 35 nəfər "Tərəqqi" medalı, 177 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub. Daha 2 nəfərə dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə "Əməkdar dövlət qulluqçusu" fəxri adı verilib.

# Şanlı tarix yazan Azərbaycan Ordusu

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Binəqədi Mərkəzi Mədəniyyət Evinin təşkilatçılığı ilə N saylı hərbi hissədə 26 İyun – Silahlı Qüvvələr Gününə həsr olunmuş konsert proqramı təqdim edilib.



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər hərbi hissənin şəxsi heyətini bayram münasibətilə təbrik edərək Silahlı Qüvvələr Gününün yaranma tarixindən danışıblar.

Bədii hissədə Mədəniyyət evində fəaliyyət göstərən "Pöhrə" rəqs qrupunun üzvləri və Ağadadaş Qurbanov adına Xalq teatrının üzvləri çıxış ediblər.

***



Baş idarənin tabeliyində olan Yasamal rayon Heydər Əliyev Mərkəzində "Azərbaycan Ordusunun şanlı tarixi" adlı tədbir keçirilib.

Tədbirdə rəsmilər, Bakı Hərbi Kollecinin zabit və kursantları iştirak ediblər.

Öncə qonaqlar mərkəzin muzey bölməsində Ulu öndər Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini, ölkəmizin tərəqqisi uğrunda göstərdiyi çoxsaylı xidmətləri özündə əks etdirən eksponatlarla tanış olublar.

Dövlət Himni səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Bildirilib ki, Ümummilli lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli sərəncamına əsasən, Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusunun yarandığı 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub və hər il bu bayram böyük təntənə ilə qeyd edilir.

Sonda Azərbaycan Ordusunun şanlı tarixindən bəhs edən film nümayiş olunub.

# Mədəniyyətimiz radiodalğalarda

Mədəniyyət Nazirliyi və "Pro Media Group" MMC-nin təşkilatçılığı ilə yeni radio layihələrinə start verilib.

Birgə əməkdaşlıq nəticəsində "Azərbaycan dili", "Mədəni irsimiz" və "Mədəni afişa" rubrikaları, "Sənətin səsi" verilişi dinləyicilərə təqdim edilir.

"Retro FM" (93.3 FM) radiostansiyasında yayımlanan "Mədəni irsimiz" rubrikasında nəsildən-nəslə ötürülən mədəni irs nümunələrimiz, paytaxt Bakıda, həmçinin Azərbaycanın digər şəhər və rayonlarında yerləşən tarix-memarlıq və mədəniyyət abidələri, binaları haqqında məlumat verilir.

"Avto FM" (107.7 FM) və "Retro FM" (93.3 FM) dalğalarında yayımlanan "Mədəni afişa"da paytaxtda fəaliyyət göstərən teatrlardakı tamaşalar haqqında məlumat diqqətə çatdırılır.

"Azərbaycan dili" isə "Avto FM", "Retro FM" və "Hit FM" (97.7 FM) radiostansiyalarında yayımlanır.

"Retro FM"in efirində həftəiçi 5 gün saat 13:00-14:00-da canlı yayımlanan "Sənətin səsi" verilişində isə milli musiqimizin inkişafında əvəzsiz xidmətləri olmuş bəstəkar, xanəndə, estrada və opera ifaçıları haqqında onların irsinin tədqiqatçıları, ailə üzvləri və tələbələri ilə müsahibələr təqdim edilir.

# "Musiqi sevinc bəxş edir"

## Vyanada Tofiq Əhmədovun 100 illiyinə həsr olunmuş konsert

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli caz musiqiçisi, instrumental ifaçı, bəstəkar, uzun illər Azərbaycan Televiziya və Radiosu Estrada simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru olmuş Xalq artisti Tofiq Əhmədovun (1924–1981) 100 illiyinə həsr olunmuş konsert keçirilib.

"Musiqi sevinc bəxş edir" ("Musik macht Freude – MmF") adlı yubiley konserti Vyanadakı eyniadlı musiqi məktəbi (Musikschule MmF) tərəfindən "Culture Meeting Point" mədəniyyət təşkilatı, şəhər meriyası, "Sun Dance Company" rəqs studiyası və Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə təşkil olunub.

Tədbirin əvvəlində "Musik macht Freude" musiqi məktəbinin və "Culture Meeting Point" mədəniyyət təşkilatının musiqi rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fərəh Tahirova qonaqları salamlayaraq T.Əhmədovun Azərbaycan caz musiqisinin inkişafındakı rolundan bəhs edib.

Qeyd edilib ki, Şərqlə Qərb arasında musiqi mübadiləsi və mədəni körpü rolunu oynayan, Avstriya ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafına yönələn konsert proqramında T.Əhmədovun əsərləri ilə yanaşı, dahi Azərbaycan bəstəkarı Qara Qarayevin, məşhur Avstriya və Avropa bəstəkarlarının əsərlərinə də yer verilib.




Konsert uşaqların T.Əhmədovun yaradıcılığı haqqında maraqlı təqdimatları ilə müşayiət olunub, sənətkarın bəstələri və fotoları təqdim edilib.

Musiqi məktəbi və şəhər gimnaziyaları şagirdlərinin, "Sun Dance Company" rəqs studiyası tələbələrinin ifaları gecənin qonaqları tərəfindən maraqla qarşılanıb.

Beynəlxalq fortepiano müsabiqələrinin laureatı, gənc pianoçu və bəstəkar, Vyana Dövlət Operası xorunun solisti Norbert Ebner T.Əhmədovun "Güldür məni" ("Give me a smile") mahnısını, həmçinin musiqiçinin yubileyinə həsr olunmuş "Günəşli vals"ı ifa edib.

Gecədə Vyanada fəaliyyət göstərən müxtəlif diaspor təşkilatlarının nümayəndələri, Azərbaycanın Vyanadakı səfirliyinin əməkdaşları, avstriyalı musiqiçi və alimlər, Tofiq Əhmədovun ailə üzvləri iştirak ediblər.

# Musiqi və incəsənət məktəblərinə şagird qəbulu: şəffaf və aşkar

## Prosesi media mənsubları da izlədilər

əvvəli səh. 1-də

Şagird seçiminin bu mərhələdə aparılması həm də musiqi və incəsənət məktəblərinin real imkanlarını ölçmək və incəsənət təhsil göstəricilərini daha dəqiq qiymətləndirmək imkanlarına görə əhəmiyyətlidir.

Xatırladaq ki, imtahanın nəticəsi barədə bütün imtahanlar yekunlaşdıqdan sonra üç iş günü ərzində şəxsi kabinet, elektron poçt və ya SMS məlumatlandırma xidməti vasitəsilə namizədə (18 yaşa çatmayanların valideyninə və ya qanuni nümayəndəsinə) bildiriş göndəriləcək.

***

İyunun 24-də Bakı Xoreoqrafiya Akademiyasında imtahan prosesi ilə tanış olmaq məqsədilə media nümayəndələri üçün infotur təşkil edildi.

Tədbirdə media nümayəndələri ilə yanaşı, mədəniyyət nazirinin müavini Murad Hüseynov, nazirin müşaviri Cəsarət Valehov, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə, Xalq artistləri, tarzənlər Ramiz Quliyev, Elçin Həşimov və digər qonaqlar iştirak edirdilər.

Qonaqlar əyani şəkildə imtahan mərhələsinin gedişatı ilə tanış oldular. Onlara imtahan prosesi və iştirakçılar barədə məlumat verildi.

Jurnalistlərə açıqlama verən Xalq artisti Firəngiz Əlizadə qeyd etdi ki, istedadlı uşaqlarla görüşmək insana həmişə gözəl təsir bağışlayır: "Biz infotur zamanı imtahanların keçirilməsinə nəzər yetirdik. Gördük ki, bu uşaqlar piano, xoreoqrafiya və digər ixtisaslar üzrə oxumaq istəyi ilə gəliblər. Biz onların hamısına müvəffəqiyyətlər arzu edirik. İstəyirik ki, istedadlı uşaqlarımız musiqi savadına yiyələnib gələcəkdə ölkəmizin tanınmış simaları olsunlar".





Görkəmli tarzən, Xalq artisti Ramiz Quliyev qəbul imtahanın əhəmiyyətini vurğuladı: "Mən bu gün bir daha şahidi oldum ki, Azərbaycan mədəniyyətinin böyük dəyəri var. İstedadlı yeni nəsil Azərbaycan musiqisinin parlaq sabahıdır".

Xalq artisti, tarzən Elçin Həşimov imtahan prosesinin şəffaf və obyektiv aparıldığını dedi: "Əvvəlki illərdən fərqli olaraq, bu il ilk dəfə imtahanlar mərkəzləşdirilmiş şəkildə aparılır. Bu, doğrudan da, çox təqdirəlayiq haldır. Düşünürəm ki, növbəti illərdə biz bunun bəhrəsini görəcəyik. Mədəniyyət Nazirliyinin bu təşəbbüsü və builki qəbul Azərbaycan musiqi və incəsənətinə gözəl adlar, simalar bəxş edəcək".

Əməkdar artist, kamança ifaçısı Elnur Əhmədov imtahanların yeni formatda təşkilinə görə Mədəniyyət Nazirliyinə təşəkkür etdi: "Biz infotur zamanı fidan balalarımızın şəffaf şəkildə qəbul imtahanlarında iştirakının şahidi olduq. Mən bir anlıq öz uşaqlıq illərimə qayıtdım. İnanıram ki, bugünkü imtahan verən fidan balalarımız musiqi mədəniyyətimizdə və incəsənətimizdə öz layiqli yerlərini tutacaqlar. Onların içərisində yaxşı tarzənlər, kamança ifaçıları da olacaq".

İmtahan komissiyasının üzvü Rüfət Həsənov jurnalistlərə açıqlamasında imtahanların vətəndaşlarımızın rahatlığı ilə yanaşı şəffaflığı da təmin edəcəyini vurğuladı: "Bu imtahan mərhələsi üçün komissiya yaradılıb. İmtahanlar çox yüksək səviyyədə keçirilir. Düşünürəm ki, bu uşaqların içərisindən gələcəkdə tanınmış musiqi xadimləri yetişəcək".

**Nurəddin**




# "Gənclərdən gənclər üçün"

## "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşada daha bir forum

əvvəli səh. 1-də

Prezidentin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb. Diqqətə çatdırıb ki, bu gün Şuşada aparılan geniş quruculuq işlərinin gənclər də iştirak edirlər: "Şuşaya, öz doğma yurduna qayıdanlar arasında gənclər də var. Onlar şəhərin inkişafına töhfə verirlər...".

Aydın Kərimov mədəniyyət paytaxtımızda belə bir tədbirin təşkilinə görə ICESCO-nun rəhbərliyinə təşəkkür edib, forum iştirakçılarına uğurlar diləyib.

ICESCO-nun baş direktoru Salim əl-Malik tədbirin keçirilməsi üçün göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Azərbaycan Hökumətinə, Gənclər və İdman Nazirliyinə minnətdarlığını bildirib.

Baş direktor Şuşa şəhərinə növbəti dəfə səfər etdiyi üçün xoşbəxt olduğunu söyləyib: "Burada olmaq möhtəşəmdir".

Forumun əhəmiyyətinə toxunan Salim əl-Malik vurğulayıb ki, biz dünyada sülhü qorumaq üçün əlimizdən gələni etməliyik. O, Azərbaycanla sıx tərəfdaşlığın gələcəkdə daha da genişləndirilməsini nəzərdə tutduqlarını deyib: "Bunun üçün əlimizdən gələni edəcəyik. Bu il Azərbaycanda keçiriləcək COP29 tədbirində də iştirak etmək istəyirik".

Gənclər və idman naziri Fərid Qayıbov da forumun əhəmiyyətini vurğulayaraq ICESCO-nun rəhbərliyinə, layihənin icrasında yardımlarına görə Heydər Əliyev Fonduna təşəkkür edib.

Qeyd edək ki, "By Youth For Youth" Beynəlxalq Forumu işini 26-27 iyunda Bakıda panel müzakirələr və təqdimatlarla davam etdirəcək. Dünyanın dörd qitəsindən gələn iştirakçılar Azərbaycanın zəngin multikultural tarixi və mədəniyyəti, ali təhsil müəssisələri ilə də tanış olacaqlar.

Tədbir Azərbaycanın bir sıra ölkələrlə xoşməramlı əlaqələrinin genişlənməsində gənclərin iştirakının artmasına töhfə verəcək.

# Ordum var – yurdum var...

## 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günüdür



əvvəli səh. 1-də

Heydər Əliyev 1993-cü ilin iyununda Azərbaycana rəhbərliyə qayıdandan sonra gerçək ordu quruculuğu başlandı. Lakin bu prosesə fundamental şəkildə başlamaq üçün ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, bu quruculuğun şah damarı olan iqtisadiyyatın bərpası zəruri idi.

Heydər Əliyev 1994-cü ilin mayında Qarabağ müharibəsində atəşkəsə nail oldu. Çünki o, Azərbaycan əsgərinin gerçək durumundan xəbərdar olduğu kimi, müzəffər ordu quruculuğu üçün nə etmək lazım olduğunu gözəl bilirdi. Sonrakı illərdə Azərbaycanda Silahlı Qüvvələrin ən müasir səviyyədə, o cümlədən qardaş Türkiyənin hərbi təlim və kadr hazırlığında köməyi sayəsində yenidən qurulması üçün atılan ardıcıl addımlar bunu bir daha təsdiqlədi...

***

"Ordunun güclənməsi üçün nə lazımdırsa, biz bundan sonra da edəcəyik. Çünki Azərbaycan müharibə şəraitində yaşayır və müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Biz hər an öz doğma torpaqlarımızı azad etməyə hazır olmalıyıq və məhz bu məqsədlə biz güclü ordu yaradırıq. Əlbəttə, biz sülh danışıqlarını davam etdirəcəyik. Ancaq, eyni zamanda, güclü ordunun yaranması həm də bizə imkan verir ki, biz istənilən yolla ədaləti bərpa edək və öz doğma torpaqlarımızı işğalçılardan azad edək...".

Ali Baş Komandan İlham Əliyev bu sözləri 2008-ci ilin 26 iyununda, Azərbaycan Silahlı Qüvvələrinin Birinci Qarabağ müharibəsindən sonra, atəşkəs dövründə keçirilən ilk paradında demişdi.

Atəşkəsin 14 ili arxada qalmışdı, irəlidə hələ neçə belə illər vardı. Eyni zamanda bir gerçək bəlli idi: hərblə zəbt olunmuş torpaqları yalnız real hərbi güc sayəsində geri almaq olar. Sonra 2016-cı ilin apreli gəldi. Dördgünlük döyüşlərdə düşmən bu gücü ilk dəfə gördü...

***

Nəhayət, 2020-ci ilin 27 sentyabrı gəldi. Bu tarix milli yaddaşda bir həqiqət anı, qırılma nöqtəsi idi. Bundan sonra geri dönüş olmazdı.

Ali Baş Komandanın söylədiyi kimi: "Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir...".

44 gün sonra tarixi Zəfər günü də yetişdi...

Bundan sonra milli şan-şərəf salnaməsinə yazılacaq bir tarix – son həmlə qalmışdı. 2023-cü ilin 23 saatlıq (19–20 sentyabr) hərbi əməliyyatı ilə Azərbaycan külli Qarabağda suverenliyini tam və qəti şəkildə bərpa etdi.

Bundan sonrasını da tarix yazacaq.

Ali Baş Komandan İlham Əliyevin 2023-cü ilin 8 noyabrında Xankəndinin mərkəzi meydanında Zəfər paradında dediyi kimi: "Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz!..."

Ordum var – yurdum var! Xalqımız Ordusu ilə hər zaman qürur duyсun!...

**Vüqar Orxan**

əvvəli səh. 1-də

# Günəşli Bakıda Rusiya Mədəniyyəti Günləri

## "Gördüyümüz isti münasibət həm də azərbaycanlıların qəlbindən gələn hərarətdir"

Qeyd edildi ki, Azərbaycan və Rusiya xalqlarını çoxəsrlik dostluq əlaqələri və ortaq tarixi inkişaf yolu birləşdirir: "Azərbaycanda Rusiya Mədəniyyəti Günləri axırıncı dəfə beş il əvvəl olub. İstəyirik ki, bundan sonra bu tədbiri ildə bir dəfə olmaqla mütəmadi keçirək. Məhz bu kimi mədəni layihələr iki dövlətin strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələrinin daha da inkişafına şərait yaradır. İnanıram ki, bu gün rusiyalı incəsənət ustalarının azərbaycanlı həmkarları ilə birgə çıxışı da bu əməkdaşlığın ən gözəl nümunəsi kimi alqışlanacaq".







Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Murad Hüseynov çıxışında iki ölkə arasında mədəni əlaqələrin dinamik şəkildə inkişaf etdiyini bildirdi, mədəniyyət günlərinin əhəmiyyətini vurğuladı. Qeyd etdi ki, ölkələrimizin mədəniyyət xadimləri, incəsənət ustaları, yaradıcı kollektivləri həm Rusiyada, həm də Azərbaycanda keçirilən bir çox festivallarda və mədəni tədbirlərdə iştirak edirlər. Bir müddət əvvəl Bakıda keçirilən Rusiya kinosu günləri böyük maraqla qarşılandı. Mədəni əlaqələr incəsənət ustaları arasında təcrübə mübadiləsinə də yol açır.

Çıxışlardan sonra qala-konsert təqdim olundu.

Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin müşayiəti ilə (dirijor – Rusiyanın Əməkdar artisti İvan Rudin) Aleksey Melnikov (fortepiano), Sergey Doqadin (violin) və Mariya Barakovanın (mezzo-soprano) çıxışları tamaşaçıların alqışları ilə qarşılandı. Azərbaycan vokalçılarının rusiyalı ifaçılarla birgə səhnəni bölüşməsi də böyük alqış doğurdu.

P.Çaykovski, S.Raxmaninov, D.Şostakoviç və N.A.Rimski-Korsakovun əsərlərinin yer aldığı proqram tamaşaçılara unudulmaz anlar bəxş etdi.

### Rusiyalı sənətçilərin ustad dərsləri

Bakıda keçirilən Rusiya Mədəniyyəti Günləri çərçivəsində iyunun 25-də Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Rusiyadan gəlmiş mütəxəssislər Aleksandrina Koloqriva və Nataliya Kulikovanın iştirakı ilə aktyor sənəti, Alina İvax tərəfindən isə vokal üzrə ustad dərsləri təşkil olunub.

Ustad dərsində incəsənət sahəsi və aktyorluq üzrə təhsil alan tələbələr iştirak ediblər.

Yaradıcılıq yolundan danışan Moskva Quberniya Teatrının truppa rəhbəri Alina İvax bildirib ki, vokalçılar üçün aktyorluq sənətini tədris etməklə yanaşı, "vokal terapiyası" üzrə ustad dərslərinə də rəhbərlik edir.

A.İvax Rusiyada artıq yeddinci dəfə keçiriləcək beynəlxalq uşaq festivalı haqqında da məlumat verib. Bildirib ki, "Roskonsert" həm regionlarda, həm də ölkədən kənarda festivala pedaqoqlar və sənət adamlarını cəlb edir. "Biz səbirsizliklə azərbaycanlı sənət adamlarını da Moskvada gözləyirik. Ümid edirəm ki, mədəniyyət sahəsində Rusiya-Azərbaycan əməkdaşlığı bundan sonra da inkişaf edəcək. Bu, çox vacibdir. Çünki təcrübə mübadiləsi həmişə zənginlik gətirir", – deyə o əlavə edib.

Qonaq sənətçilər Azərbaycan incəsənəti, xüsusilə də, film və tamaşalarımızı izlədiklərini diqqətə çatdırıblar.

Ustad dərsində müəllif, ssenari, aktyor, səs məsələləri, habelə yeni nəsil aktyorlar, repertuar və dramaturgiya mövzusunda fikir mübadiləsi aparılıb.

Yeni aktyor nəslinin tamaşaçını cəlb etmə xüsusiyyətləri, teatrda yeni adlar və tamaşaçı marağı ilə bağlı söhbət açılıb. Bildirilib ki, Rusiyada yeni dram əsərləri əvvəlcə regionlarda səhnələşdirilir, daha sonra paytaxtda fəaliyyət göstərən rejissorlar onların sırasından ən yaxşılarını seçib təqdim edirlər.

Qonaqlar Rusiya teatrlarında tətbiq olunan yeni yanaşmalardan bəhs edib, tələbələrin suallarını cavablandırıblar.

Qeyd edək ki, Rusiya Mədəniyyəti Günləri çərçivəsində iyunun 23-də tanınmış pianoçu Aleksey Melnikovun Bakı Musiqi Akademiyasında ustad dərsi də gerçəkləşib.

***

İyunun 25-də axşam sənətsevərlər Akademik Rus Dram Teatrının səhnəsində Moskva Quberniya Teatrının təqdim etdiyi Aleksandr Ostrovskinin "Ailə şəkli" pyesinin tamaşanı izləyiblər.

**Lalə Azəri**

# Almaniya ilə mədəni-humanitar əməkdaşlıq inkişaf edir

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Almaniyaya səfərə gedib. Nazir müavini Fərid Cəfərovun başçılıq etdiyi heyət iyunun 21-də Drezden Dövlət və Universitet Kitabxanasını ziyarət edib.



Kitabxananın tarixi və fəaliyyəti haqqında qonaqlara məlumat verilib. Sonra kitabxananın rəhbərliyi ilə görüş olub, sahə üzrə əməkdaşlığın perspektivləri barədə müzakirə aparılıb.

Nümayəndə heyəti kitabxanada qorunub saxlanılan Türk dünyasının ortaq ədəbiyyat və mədəniyyət abidəsi – "Kitabi-Dədə Qorqud" eposunun əlyazma nüsxəsi ilə tanış olub.

Qeyd edək ki, dastanın öyrənilməsi alman şərqşünası Henrix Fridrix fon Dits tərəfindən 1815-ci ildə Drezden kitabxanasında "Kitabi-Dədə Qorqud"un XV əsrdə yazıya alınmış əlyazmasını aşkar etməsi ilə başlayıb. Bu əlyazma müqəddimə və 12 boydan ibarətdir. 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyi qeyd olunub.

Dastanın ikinci nüsxəsi Vatikandadır. İtalyan alimi Ettore Rossi tərəfindən 1952-ci ildə nəşr edilmiş bu nüsxədə dastanın 6 boyu verilib.

Son illərdə eposun yeni nüsxələri aşkara çıxarılıb. Drezden və Vatikanda saxlanılan əlyazmaların faksimilesi isə ikicildlik "Kitabi-Dədə Qorqud" ensiklopediyası"nda oxuculara təqdim edilib.

### Berlində Azərbaycan dili həftəsonu məktəbinin açılışı

Ölkəmizin Almaniyadakı səfirliyi nəzdində Berlində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Mədəniyyət Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi və səfirliyimizin birgə təşkilati dəstəyi ilə "Xarıbülbül" Azərbaycan dili həftəsonu məktəbinin açılış mərasimi keçirilib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev, ölkəmizdən gedən nümayəndə heyətinin üzvləri, diaspor təmsilçilərimiz mərasimdə iştirak ediblər.

Çıxışlarda Azərbaycan dili həftəsonu məktəbinin əhəmiyyəti vurğulanıb, məktəbin dilimizin təbliğinə töhfə verəcəyi bildirilib.

Qeyd olunub ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan dili məktəblərinin təsis olunması gənc nəslin tarixi Vətənlə bağlarının qorunmasında, ana dilini öyrənməsində mühüm əhəmiyyət kəsb edir. Almaniyadakı Azərbaycan diasporu da bu sahədə uğurla fəaliyyət göstərir.

Açılış mərasimindən sonra qonaqlar mərkəzdə yeni təşkil olan nağara kurslarının açılışında iştirak ediblər.

Azərbaycan dili həftəsonu məktəbinin dinləyicilərinə Mədəniyyət Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsi adından hədiyyələr təqdim olunub.

# Rusiya–Azərbaycan: regional layihələr və təşəbbüslər çərçivəsində əməkdaşlıq

Rusiya-Azərbaycan Ekspert Şurasının (RAEŞ) "Rusiya və Azərbaycanın regional layihələr və təşəbbüslər çərçivəsində əməkdaşlığı" mövzusunda beşinci iclası iyunun 21-də Bakıda keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Rusiya Federasiyası Prezidentinin Xarici ölkələrlə regionlararası və mədəni əlaqələr üzrə idarəsinin rəhbəri İqor Maslov, digər rəsmilər iştirak ediblər.

Tədbirə moderatorluq edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev RAEŞ platformasının 2021-ci ildə yaradıldığını diqqətə çatdırıb, toplantıda regional məsələlər, o cümlədən nəqliyyat, regional təhlükəsizlik və digər sahələrə dair müzakirələrin aparılacağını deyib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev qeyd edib ki, iki ölkə arasında münasibətlər ən yüksək səviyyədədir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə son onilliklər ərzində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində aparılan ardıcıl işin məntiqi nəticəsidir. Ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin möhkəmləndirilməsi və inkişafı tendensiyası müşahidə olunur. Rusiyanın regionlarının azərbaycanlı tərəfdaşları ilə iqtisadi-ticari, elmi-texniki, mədəni əlaqələr üzrə 10-dan artıq sazişi həyata keçirilir. Humanitar və təhsil sahələrində əməkdaşlıq da uğurla inkişaf edir. Azərbaycanda Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı uğurla fəaliyyət göstərir. Təxminən 340 məktəbdə 140 mindən çox uşaq rus dilində olan sektorlarda oxuyur. Azərbaycanın universitetlərində rus dili bölmələrində 15 min tələbə təhsil alır.

Azərbaycanda Rusiya Mədəniyyəti Günlərinə (23–25 iyun) də toxunan Hikmət Hacıyev il ərzində çoxsaylı mədəni tədbirlərin də nəzərdə tutulduğunu deyib. Bildirib ki, bütün bunlar ölkələrimizin dost xalqları arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək.

İqor Maslov çıxışında bildirib ki, 2021-ci ildə RAEŞ ekspert platformasının yaradılması barədə qərar çox düzgün və səmərəli olub. İki ölkənin ekspertləri aktual məsələləri müzakirə edirlər.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov qeyd edib ki, Rusiya Cənubi Qafqazda sabitliyin və firavanlığın bərqərar olmasında maraqlıdır və Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması prosesinə töhfə verməyə hazırdır.

Azərbaycan XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov, Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru İvan Timofeyev çıxış ediblər.

Sonra "Rusiya-Azərbaycan müttəfiqlik qarşılıqlı fəaliyyətinin prioritetləri", "Rusiya və Azərbaycanın regional əməkdaşlığının aktual formatları və aspektləri" və digər mövzularda müzakirələr aparılıb.

# "Sənətkarın dostu" – Şəmistan Əlizamanlı ilə görüş



İyunun 24-də Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının dəstəyi ilə həyata keçirilən "Sənətkarın dostu" layihəsi üzrə növbəti görüş olub.

26 İyun – Silahlı Qüvvələr Gününə həsr edilmiş görüşdə şəhid ailələri, qazilər və paytaxtımızda fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərindən nümayəndələr iştirak ediblər. Dövlət Mahnı Teatrında keçirilən görüşün budəfəki qonağı hərbi diktor, hərbi-vətənpərvərlik nəğmələrinin tanınmış ifaçısı Şəmistan Əlizamanlı olub.

MEMİM-in direktoru vəzifəsini icra edən Vüqar Hümbətov iştirakçıları salamlayaraq bildirib ki, hərbi-vətənpərvərlik mövzularında müxtəlif formatlı tədbirlərin təşkili mərkəzin prioritetlərindən biridir.

MEMİM-in əməkdaşı Riad Cəbrayılovun moderatorluğu ilə keçirilən tədbirdə 44 günlük Vətən müharibəsində Qələbənin əldə olunmasında hərbi nəğmələrin rolu və gənclərin milli ruhda tərbiyə edilməsinin əhəmiyyəti ilə bağlı söhbət aparılıb. Şəmistan Əlizamanlı sənətdə ilk addımlarından bəhs edərək Azərbaycan hərb musiqisinin tarixi, inkişafı və əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Görüşdə Ş.Əlizamanlı "Ana Vətən", "Cənab leytenant" və "Can Azərbaycan" mahnılarını, Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestri (bədii rəhbər – Əməkdar incəsənət xadimi Əlibala Rzayev) "Marş", "Vətən marşı", Niyazi adına Şuşa şəhər Uşaq incəsənət məktəbinin (Bakı şəhəri) kollektivi "Şuşa fatehləri" əsərlərini səsləndiriblər.

Xatırladaq ki, "Sənətkarın dostu" layihəsi üzrə ilk görüş Üzeyir Hacıbəylinin Ev-Muzeyində tanınmış pianoçu, Xalq artisti Ülviyyə Hacıbəyova ilə olmuşdu.

# Çin bu il Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edəcək

## Nəşriyyat və tərcümə sahəsində əlaqələr müzakirə olunub

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Çindəki səfirliyimizin dəstəyi ilə ölkəmiz 19–23 iyun tarixlərində keçirilən Pekin Beynəlxalq Kitab Sərgisində təmsil olunub.




İyunun 21-də Azərbaycan nümayəndə heyətinin iştirakı ilə Pekin Dil və Mədəniyyət Universitetində görüş keçirilib.

Görüş zamanı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikası Milli Mətbuat və Yayım Administrasiyası arasında 2022-ci ildə imzalanmış anlaşma memorandumuna əsasən hər iki ölkənin klassik əsərlərinin tərcüməsi və nəşri ilə bağlı hazırkı vəziyyət, görüləcək işlər müzakirə olunub.

Milli Mətbuat və Yayım Administrasiyasının rəsmisi, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Təbliğat Şöbəsinin İdxal və İxrac Bürosunun direktor müavini Cao Hayyun nümayəndə heyətini salamlayıb və Çin-Azərbaycan mədəni əməkdaşlığının davamı olaraq tərcümə layihəsinin önəmini vurğulayıb. Bildirib ki, layihə iki xalqın mədəni irsinin öyrənilməsi və təbliğinə öz töhfəsini verəcək.

Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Pekin Beynəlxalq Kitab Sərgisi çərçivəsində ölkəmizin iştirakı ilə bağlı göstərilən dəstəyə, eyni zamanda Azərbaycanın mədəni irsinə olan diqqətə görə təşəkkürünü ifadə edib.

Çin tərəfinə tərcümə layihəsinin hazırkı vəziyyəti ilə bağlı məlumat verilib, həmçinin Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində iki xalqın mədəni əməkdaşlığının genişləndirilməsi imkanları müzakirə edilib. Bakı Beynəlxalq Kitab Sərgisinin tanıtım çarxı nümayiş olunub.

Çin tərəfi 10-cu Bakı Beynəlxalq Kitab Sərgisində bir neçə nəşriyyatın iştirak edəcəyini bildirib.

# Tbilisidə gənc rəssam soydaşımızın ilk fərdi sərgisi

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində gənc rəssam Turanə Süleymanlının "Uğura ilk addımım" adlı fərdi sərgisi açılıb.



Muzeyin direktoru Leyla Əliyeva gənc rəssamı təbrik edib, ona yaradıcılıq uğurları arzulayıb.

Azərbaycanın Gürcüstandakı Səfirliyinin əməkdaşı Ramiz Hacızadə dost ölkədə yaşayan gənclərimizin incəsənətə marağını yüksək qiymətləndirib. Bildirib ki, Azərbaycan dövləti soydaşlarımıza, xüsusən də, gənclərin inkişafına ayrıca diqqət yetirir. Səfirlik də gənclərə hər zaman dəstək olur.

Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubov da gənc soydaşlarımızın mədəni həyatda fəal iştirakını, idman və bilik yarışlarında uğurlar qazanmasını təqdir edib.

Gənc rəssamın Azərbaycan, Gürcüstan və Türkiyə dostluğunu əks etdirən, eləcə də milli adət və ənənələrdən bəs edən əsərləri maraqla qarşılanıb.

## “Şirvanda kino günləri”

Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) strateji məqsədlərindən biri də yeni və klassik filmlərimizin geniş auditoriyaya təqdim olunmasıdır. Bu məqsədlə qurum tərəfindən bölgə tamaşaçılarını yeni Azərbaycan filmləri ilə tanış etmək üçün silsilə tədbirlər keçirilir.

İyul ayının birinci yarısında “Şirvanda kino günləri” layihəsi reallaşdırılacaq. Layihə üzrə İlqar Nəcəfin “Suğra və oğulları”, Elvin Mirzəyevin “Qul”, Qulu Əsgərovun “Mən burdayam, ilahi!” tammetrajlı bədii filmləri və Amil Amal, Şirin Əhmədov, Elvin Aşirov, Pərviz Həsənov və İntiqam Hacılının qısametrajlı filmləri nümayiş olunacaq. Filmlər Şirvan şəhərində, Neftçala, Salyan, Hacıqabul və Biləsuvar rayonlarında təqdim ediləcək.

Qeyd edək ki, bundan əvvəl 2022-ci ildə “Cənubda kino günləri” başlığı ilə Lənkəran, Biləsuvar, Lerik rayonlarında film nümayişləri təşkil olunmuşdu.

## “Süni cənnətin cəhənnəm odu” – maarifləndirici tədbir



Sumqayıt Gənclər Kitabxanasında 26 iyun – Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü ilə əlaqədar “Süni cənnətin cəhənnəm odu” adlı tədbir keçirilib.

Çıxış edənlər narkomaniyanın törətdiyi fəsadlar, baş verən cinayət hadisələri, gənclərin psixoloji durumu, son zamanlar geniş yayılan bu bəladan qurtulmanın yolları barədə danışıblar.

“Narkomaniyaya yox deyək!” adlı kitab və dövri mətbuat nümunələrinin yer aldığı sərgi haqqında məlumat verilib. Gənclərin sualları cavablandırılıb.

Sonda kitabxananın müdiri vəzifəsini müvəqqəti icra edən Leyla Mahmudova gənclərə xoş arzularını çatdırıb, onları pis vərdişlərdən uzaq durmağa səsləyib.

## Ətraf mühit naminə dayanıqlı inkişaf



Lənkəran şəhər Heydər Əliyev Mərkəzində “Gənc müəllimlərin yaşıl dünya konfransı: ətraf mühit naminə dayanıqlı inkişaf” adlı tədbir keçirilib.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyeva, Lənkəran-Astara Regional Təhsil İdarəsi Təhsilin inkişafı sektorunun müdiri Hafiz Pənahov, Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxova və başqalarının çıxışları dinlənilib. Sonra təlim sessiyaları keçirilib.

Bədii hissədə Lənkəran Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Sosial və Aqrar-Texnoloji Kollecin müəllim və tələbə heyətinin ifa etdiyi “Mənim Azərbaycanım” və “Xudayar təsnifi” tədbirə rəng qatıb.

## Musiqi və incəsənət məktəblərinin uğuru

Rusiya Federasiyası Adıgey Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən “Adıgey ulduzları” adlı uşaq və gənclərin bədii yaradıcılıq festival-müsabiqəsi keçirilib.

Neftçala şəhər Camal İsmayılov adına Uşaq incəsənət məktəbinin şagirdlərdən ibarət “Rast qrupu” (bədii rəhbər Xalid Hüseynov) müsabiqədə instrumental nominasiyası üzrə I dərəcəli, Şirvan şəhər Uşaq musiqi məktəbinin şagirdləri İbrahim Məmmədzadə, Fatimə Sanıyeva (müəllim İrşad İbişov) isə vokal və xalq mahnılarının ifası nominasiyaları üzrə II və III dərəcəli diplomlara layiq görülüblər.

## “Zirvəyə doğru” – növbəti görüş



Lənkəran-Astara Regional Mədəniyyət və Təhsil idarələrinin tərəfdaşlığı, Lənkəran-Astara RGİ, “Nömrə 1” psixoloji inkişaf mərkəzinin birgə təşkilatçılığı ilə iyunun 22-də Lənkəran şəhər Mədəniyyət Mərkəzində “İrs” layihəsi çərçivəsində “Zirvəyə doğru” adlı növbəti görüş keçirilib.

Görüşdə şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, qazilər, ümumtəhsil müəssisələrinin rəhbər və müəllimləri, mədəniyyət işçiləri və digər şəxslər iştirak ediblər.

Şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, Əməkdar artist, xanəndə Təyyar Bayramov, psixologiya üzrə fəlsəfə doktoru Könül Cəfərova və başqaları gənclərlə həmsöhbət olublar. Diskussiya şəklində keçən görüşdə qonaqlar iştirakçıların suallarını cavablandırıblar. Təyyar Bayramovun ifa etdiyi muğam və təsniflər tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

## Bölgələrdə bədii təhsil ocaqlarına qəbul imtahanı davam edir

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə 2024/2025-ci tədris ili üzrə şagirdlərin qəbul imtahanları davam edir. Bu il vətəndaşların rahatlığı üçün ilk dəfə olaraq imtahanlar mərkəzləşdirilmiş şəkildə həyata keçirilir. 20-30 iyun tarixlərini əhatə edən imtahan mərhələsi Bakı şəhəri ilə yanaşı, bölgələrdə də təşkil olunur.

Mərkəzi Aran RMİ-nin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə 2024/2025-ci tədris ili üzrə şagirdlərin növbəti imtahanı başlanıb.

İmtahan Mərkəzi Aran RMİ üzrə 8 imtahan komissiyası (Mingəçevirdə 2, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdabda hərəsində 1-i olmaqla) tərəfindən aparılır.





İyunun 20-də regional idarə üzrə 372 nəfər qeydiyyatdan keçmiş namizəd imtahanda iştirak edib. İmtahan prosesinin rahat, şəffaf və təhlükəsiz şəraitdə həyata keçirilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

***

Şəki-Zaqatala RMİ-nin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul imtahanı iyunun 23-də yekunlaşıb. İmtahanda regional idarə üzrə bu il ümumilikdə müraciət edən 972 nəfər şagirddən 874 nəfəri iştirak edib.

Xatırladaq ki, imtahanın nəticəsi barədə bütün imtahanlar yekunlaşdıqdan sonra 3 (üç) iş günü ərzində şəxsi kabinet, elektron poçt və ya SMS məlumatlandırma xidməti vasitəsilə namizədə (18 yaşa çatmayanların valideyninə və ya qanuni nümayəndəsinə) bildiriş göndəriləcək.

## Müxtəlif səpkili xəbərlər

Hacıqabul Tarix-Diyarşünaslıq Muzeyi “Rəngli dünyam” adlı tədbir təşkil edib. Tədbirdə əvvəlcə iştirakçılara “Yaşıl dünya naminə həmrəylik ili” haqqında məlumat verilib. Uşaqlar təbiətə aid rəsmlər çəkiblər. Sonda iştirakçılar diplomlarla təltif ediliblər.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzində mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə “Gözəl təbiətli Azərbaycanım” adlı rəsm müsabiqəsinin yekun mərhələsi keçirilib. Rəsmlərdən ibarət sərgi ilə tanışlıqdan sonra münsiflər heyəti tərəfindən seçilən qaliblər mükafatlandırılıb.

***









Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının yeni yaradılmış ETERNO qrupunun təqdimatına həsr olunan konsert keçirilib. Konsert proqramında müasir janrlarda musiqi nömrələri və xalq mahnıları fərqli üslubda (miks) səsləndirilib. Qrupun ifası musiqisevərlər tərəfindən hərarətlə qarşılanıb.

***

Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Vasili Əliyev adına Qubadlı rayon Mədəniyyət evi və Mahmudlu kənd Mədəniyyət evi kollektivlərinin birgə təşkilatçılığı ilə Hafiz Quliyev adına Qubadlı rayon Çaytumas kənd məktəb-liseyində (Sumqayıt şəhəri) “Yaşa, şəhidim!” adlı tədbir keçirilib. Tədbir I Qarabağ müharibəsi şəhidi Kamal Nəhmət oğlu Süleymanovun anadan olmasının 50 illiyinə həsr olunub.

Çıxış edənlər şəhid haqqında xatirələrini bölüşüb. Muğamlardan parçalar oxunub, ədəbi-bədii kompozisiya təqdim olunub.

***

Şirvan Tarix-Diyarşünaslıq Muzeyi tərəfindən “Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar iməcilik təşkil edilib. Şəhərdəki İsmət Qayıbov adına parkda və yaxın ərazilərdə təmizlik işləri həyata keçirilib.

**Hazırladı: N.Məmmədli**

## “Ən yaxşı oxucu”

### Kitabxanada müsabiqə keçirilib



Siyəzən rayon Mərkəzi Kitabxanası və Quba-Xaçmaz RGİİ-nin Siyəzən rayonu üzrə Gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə “Ən yaxşı oxucu” adlı müsabiqə keçirilib.

Müsabiqə mütaliə mədəniyyətinin təbliği, gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, istedadlı gənclərin aşkara çıxarılması, eyni zamanda asudə vaxtın səmərəli təşkili məqsədilə gerçəkləşib.

“Teleqram” sosial şəbəkəsi üzərindən keçirilən bilik yarışında 74 gənc iştirak edib. İştirakçılara ədəbiyyat sahəsi üzrə 30 sual təqdim olunub. İlk üç yeri tutanlara mükafatlar verilib.

## Azərbaycan romantizminin görkəmli nümayəndəsi



Masallı rayon Mərkəzi Kitabxanasında şair, mütəfəkkir Məhəmməd Hadinin (1879–1920) anadan olmasının 145 illiyinə həsr olunmuş “Azərbaycan romantizminin görkəmli nümayəndəsi” adlı tədbir təşkil edilib.

Çıxış edənlər Məhəmməd Hadinin Şamaxıda anadan olduğunu, ərəb və fars dillərini, Şərq ədəbiyyatını, tarix və fəlsəfəni öyrəndiyini bildiriblər. Qeyd olunub ki, Məhəmməd Hadi 1902-ci ildə Şamaxıda baş vermiş dəhşətli zəlzələdən sonra Kürdəmirə köçüb, orada məktəb açaraq müəllimlik edib, yaradıcılıqla məşğul olub. Şairin “Lövhi-məktəb” adlı ilk şeiri 1905-ci ildə “Həyat” qəzetində dərc edilib. Vurğulanıb ki, M.Hadi əsərlərində klassiklərin ənənələrini davam etdirib, dövrünün ictimai-siyasi hadisələrinə öz münasibətini bildirib. Maarifpərvər və vətənsevər ziyalı kimi dövri mətbuatda da fəal çıxış edib.

## “Füzuli rindü-şeydadır”



Lənkəran Mərkəzi Kitabxanası və Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin birgə təşkilatçılığı ilə dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin (1494–1556) 530 illiyinə həsr olunmuş “Füzuli rindü-şeydadır” adlı tədbir keçirilib.

Çıxış edənlər şairin həyat və yaradıcılığından bəhs ediblər. Bildirilib ki, Məhəmməd Füzulinin adı Azərbaycan tarixinə görkəmli şair, mütəfəkkir, tərcüməçi ədəbi dilimizin yaradıcılarından biri kimi həkk olunub. Füzulinin irihəcmli əsərləri ilə yanaşı, qəzəlləri də söz sənətimizin ölməz abidələridir.

Şagirdlər tərəfindən şairin sözlərinə yazılmış “Vətənimdir” və “Füzuli kantatası” əsərləri ifa olunub. “Leyli və Məcnun” poemasından “Anasının Leyliyə nəsihəti” səhnəsi, həmçinin müxtəlif rəqslər iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

## Bakıxanovun 230 illiyi Qubadakı ev-muzeyində qeyd olundu

Azərbaycan ədəbiyyatına, tarix elminə töhfələr verən Abbasqulu ağa Bakıxanovun (1794–1847) yeniyetmə və gənclik illəri (8 yaşından sonra) Qubada, Amsar kəndində keçib. Atası Mirzə Məhəmməd xan Bakıda xanlıq uğrunda mübarizədə əmisi oğlu Hüseynqulu xana məğlub olandan sonra vaxtilə dayısı Fətəli xanın Qubada onlara bağışladığı bu kəndə köçmüşdü. Abbasqulu ağa Bakıxanov təhsilini də bu kənddə alır, o cümlədən ərəb, fars dillərini mükəmməl öyrənir. Amsar kəndində Bakıxanovun ev-muzeyi var.



İyunun 21-də burada Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Abbasqulu ağa Bakıxanovun anadan olmasının 230 illiyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Quba Tarix Diyarşünaslıq Muzeyinin direktoru Mehriban Əliyeva, A.Bakıxanovun ev-muzeyinin direktoru İradə Əliməmmədova, Amsar kənd sakini Elman Qurbanov və başqaları çıxış etdilər. Bakıxanovun həyat yolundan, fitri istedadından, dərin zəkasından və xalqımıza miras qoyduğu irsdən söz açıldı.

Bakıxanov nəslinin nümayəndəsi Vüsalə Qasımova çıxışında A.Bakıxanovun “Mirat ül-cəmal” və “Təhzibi-əxlaq” əsərlərinin dəyərli tədqiqatçı Hədiyyə Zəhra Əhmədi tərəfindən ana dilimizə tərcümə olunduğunu diqqətə çatdıraraq müəllifin imzası ilə həmin kitabları muzeyə təqdim etdi.

Amsar kənd tam orta məktəbin şagirdləri “Qüdsi” təxəllüslü şairin şeirlərini söylədilər. Ev-muzeyində A.Bakıxanovun müəllifi olduğu kitablar, şəxsi əşyaları, fotosənədlər və digər eksponatlardan ibarət sərgi də maraqla qarşılandı.

Yubiley tədbirindən sonra kənd sakinləri ilə söhbət edərkən yaşlı insanlar Ağ çayın sahilində vaxtilə Bakıxanovlara məxsus qırmızı kərpicdən tikilmiş malikanənin olduğunu söylədilər. Amsar kəndində 1854-cü ildə Bakıxanovun həyat yoldaşı Kərbəlayı Hüseyn bəyin qızı Səkinə xanım tərəfindən tikilən məscid də qırmızı kərpicdəndir, indi də ziyarətçiləri qəbul edir. Sovet dövründə Bakıxanovların malikanəsi dağıntıya məruz qalıb. 1999-cu ildən fəaliyyət göstərən ağ rəngli indiki muzey binasının ərazisi bir vaxtlar qədim qəbiristanlıq imiş. Burada Bakıxanovlar nəslinə aid məzarlar da olub. Muzeyin mövcud binasının əsaslı təmir-bərpaya ehtiyacı var. Daha yaxşı olardı ki, burada, vaxtilə Bakıxanovlara məxsus olmuş malikanə kimi, qırmızı kərpicdən yeni muzey binası inşa edilsin.

Bundan əlavə, alim və mütəxəssislər tərəfindən torpaq altında qalan qəbirlərin, məzar daşlarının tədqiq olunması və malikanə ilə bağlı arxiv sənədlərinin araşdırılması da Bakıxanovun ruhuna ən böyük ehtiram olar.

**Təranə Cəbiyeva**

# Savaşdan qalib çıxanların himni



### 1941-ci il, Leninqrad, yəni indiki Sankt-Peterburq

...İyunun 22-də o, konservatoriyanın A.K.Qlazunov adına Kiçik zalına gəldi ki, dövlət buraxılış imtahanında iştirak etsin. Bəstəkarlıq kimi ciddi bir fənni tədris etmək üçün cavan sayılacaq müəllim 35 yaşın içindəydi və artıq özünü həm ciddi musiqi əsərlərinin müəllifi, həm də çox yaxşı pedaqoq kimi tanıtmışdı. Amma saat 10-a təyin edilmiş dövlət imtahanı baş tutmadı. Müharibə başlamışdı... Həmin müəllim sonradan XX əsrin musiqi dühalarından sayılacaq Dmitri Şostakoviç idi.

### 2024-cü il, hər zamankı Bakı

İyunun 22-də o, konsertdən əvvəl Heydər Əliyev Sarayına gəldi. Bu səhnədə yerini alacaq birləşmiş orkestrə (Sarayın tabeliyindəki Niyazi adına Dövlət Simfonik Orkestri və Akademik Opera və Balet Teatrının simfonik orkestri) dirijorluq edəcəkdi. Belə böyük kollektivi çox böyük və məsuliyyətli əsərin ölkədə ilk ifasına hazırlamaq və onu idarə etmək asan iş deyildi... Salondan səhnə arxasına yansıyan uğultu səsləri isə deyirdi ki, bu əsərin ifasından gözləntilər də böyükdür... 65 yaşın içində olan dirijor üçün bu, bəlkə də, adi bir hal idi. Onsuz da illərdən bəri Azərbaycan bəstəkarlarının əsərlərini dünya səhnələrində tanıdırdı, dünya musiqisinin incilərini doğma diyarda sevdirirdi. Lakin Azərbaycanda ilk dəfə ifa olunacaq əsəri müəllifinin adına layiq, musiqisevərlərin də gözlədiyinə yaraşan tərzdə çatdırmaq səhnədəki hər kəsdən çox onun məsuliyyəti idi. Həmin dirijor Xalq artisti, professor Yalçın Adıgözəlov idi.

### 7-ci simfoniyanı tanıyaq...

Dmitri Şostakoviçin 7-ci simfoniyası hücuma məruz qalmış ölkədə savaşın bitməsindən hələ çox əvvəl (!) ərsəyə gələn, döyüş ruhunu, qələbə əzmini ən dolğun çatdıran, bəlkə də, ən böyük əsərdir.

Bəstəkar 7-ci simfoniyanı 1941-ci ildə qələmə alıb. Əsərin ilk üç hissəsi sentyabr ayında artıq mühasirəyə alınmış Leninqradda yazılıb. Avqustun əvvəlində bəstəkar yaxın dostu, ədəbiyyatşünas İsaak Qlikmanı evinə çağırıb ona düşündüyü simfonik əsərin başlanğıcını göstərmək istəyir və deyir ki, "görünməmiş müharibə tüğyan edirsə, bəlkə də bu əsər kimsəyə lazım olmayacaq". Amma bəstəkar dostu üçün royalda faşist hücumunu təsvir edən hissələri çalır və musiqi başa çatınca hər ikisi öz həyəcanını gizlədə bilmir. Hər ikisi susur və birdən Dmitri öz fikrini bildirir: "Mən bilmirəm, bu əsərin taleyi necə olacaq, bəlkə də, tənqidçilər məni qınayacaqlar ki, Ravelin "Bolero"suna oxşayır. Qoy qınasınlar, mən müharibəni belə eşidirəm".

Sentyabr ayında cəmi bir neçə günün içində Şostakoviç simfoniyanın ikinci hissəsini bitirir və üçüncü hissəni yazmağa başlayır. Hava həyəcanı siqnalı veriləndə ailəsi ilə sığınacağa düşən bəstəkar orada çox qala bilmir və mənzilinə tələsik qayıdır ki, əsər üzərində işini davam etdirsin. Bəstəkar öz işləmək həvəsinə özü də məəttəl qalır: "Lap cəhənnəm təntisi ilə işləyirəm, özümü saxlaya bilmirəm".

Şostakoviç 7-ci simfoniyanı ailəsi ilə birlikdə təxliyə olunduğu Samara şəhərində tamamlayır. Simfoniya bu şəhərə köçürülmüş Moskva Böyük Teatrı orkestrinin ifasında ilk dəfə səslənir.

***

O zaman tanınmış yazıçı Aleksey Tolstoy bu əsər haqqında belə yazmışdı: "Yeddinci simfoniya insanda insanlığın təntənəsinə həsr olunub. Qismən də olsa, Şostakoviçin musiqi təfəkkürünün izini tutmağa çalışaq – Leninqradın tük ürpərdən qaranlıq gecələri, partlayışların gurultusu, yanğınların ərşə qalxan alovu, yanıq qoxusu onun belə bir açıq məzmunlu əsər yazmağına səbəb olub...

Samaradan sonra 7-ci simfoniyanın Moskva və Novosibirsk premyeraları baş tutdu. Amma qəhrəmanlığa bərabər premyera mühasirəyə alınmış Leninqradda, ünlü dirijor Karl Eliasberqin idarəsilə Leninqrad filarmoniyasında olmuşdu. Monumental simfoniyanı böyük orkestr heyəti ilə ifa etmək üçün hərbi hissələrdən musiqiçilər çağırmışdılar. Bəzi musiqiçiləri isə məşqlərə başlamazdan öncə hospitalda yatırtmaq lazım gəlmişdi – onların doyunca yeməyə, bəzi xəstəliklərini sağaltmağa ehtiyac var idi. Konsert günü – 9 avqust 1942-ci il tarixində mühasirədə olan şəhərin bütün artilleriya qüvvələri düşmənin atəş nöqtələrinin susdurulmasına yönəldilmişdi: tarixi premyeraya heç nə maneə olmamalıydı.

Filarmoniyanın ağ sütunlu salonu arıq, artıq nimdaş geyimli, solğun bənizli insanlarla dolu idi. Səsgücləndiricilər konsertin avazını bütün şəhərə yayırdı. Konsert həm də radio ilə canlı yayımlanırdı. Deməli, şəhəri mühasirəyə almış alman qoşun bölmələri də konserti dinləyirdilər.

Uzun illər sonra Leninqrad şəhəri və onun insanları barədə xatirələri kitab halına gətirən Vladimir Jeltovun "Yaşadığı üçün sağ qalan şəhər" toplusunda belə bir xatirə yer alacaqdı. İllər sonra Almaniyadan gəlmiş iki turist Leninqradda Karl Eliasberqlə görüşərkən belə bir etiraf edəcəkdilər: "O vaxt, 42-ci il avqustun 9-da biz başa düşdük ki, müharibəni uduzacağıq. Biz sizin aclığa, qorxuya, hətta ölümə də qalib gəlməyə qadir gücünüzü həmin musiqidə hiss etdik".

### 7-ci simfoniya və biz

Biz müharibəni görmüş, canımızla, qəlbimizlə hiss etmiş xalqıq.




Biz savaş itkilərinin ürəyimizdə açdığı yarası hələ qaysaq tutmamış xalqıq. Nə gözəl ki, həm də qalib xalqıq. Bu üzdən Dmitri Şostakoviçin 7-ci simfoniyası həm də bizim yaxın tariximizin musiqi dilində söylənilən hekayəsi ola bilər.

Simfoniyanın birinci hissəsində epik xarakterli çox aydın, nikbin ruhlu melodiya səslənir. Musiqi irəlilədikcə sakit laylayı, beşik nəğməsini xatırladır. Bu məqamlarda dilbər Qarabağda insanların rahatlıq, hüzur içində həyatı, yaşıllıqların özü kimi dinclik dolu güzəranının xoş avazları qulağa çatır. Lakin uzaqlardan təbil tappıltısı eşidilməyə başlayır. Səs gücləndikcə həyatın nizamı pozulur: qonşu namərdliyi hücum epizoduna keçir. Epizodun başlanğıcı ilk akkordlarda zərərsiz təsir bağışlayır. Lakin mövzu on bir dəfə təkrarlanır. Təkrarlandıqca da melodiyaya yeni alətlər qoşulur, səslər çoxalır və tükürpərdən ölüm maşınının yaxınlaşdığını bildirir. Nikbin notlar bədbin minor səslərə keçir. Bu səslərin içində yurdundan perik düşənlərin həsrəti, Xocalı soyqırımı qurbanlarının harayı, yaralıların inilti̇si var sanki. Musiqinin səslənişində bir hiddət acısı var: simli alətlərlə zərb alətlərinin qüdrətli tandemi ruhu üşüdür, bəlanın, fəlakətin kədəri musiqi sədasına dönərək qulaqlardan qəlbə süzülüb onu üşüdür. Birinci hissənin başlanğıcında sanki laylay çalan nəfəs alətlərinin sədası ağı kimi səslənir.

İkinci hissədə ehtiraslar bir qədər səngimiş kimi səslənir. Simli alətlərin səsləndirdiyi mövzuda kədər və həsrət bir-birinə qarışıb, sanki köçkün həyatı yaşayan insanların özləri ilə boyaboy gəzdirdikləri nisgilin izharını eşidirsən. Nəfəs alətləri ard-arda simli alətlərə qoşulduqca notların səslənişi codlaşır, sakit bir oyanış başlayır.

Üçüncü hissə həlak olanların xatirəsini yaşadan rekviyem kimi başlayır. Zaman irəlilədikcə, bu hissə məntiqi sonluğa doğru getdikcə savaş qurbanlarına sayğının səslənişi dramatizmlə gərginləşir. Bu hissəni keçmiş haqqında xatirə, əvvəlki hissələrdə səslənmiş faciələrə münasibət kimi də qavramaq olar.

Final – davamlı toparlanaraq müzəffər orduya çevrilən, əldən verdiyi mövqeləri şücaətlə çarpışıb özünə qaytaran xalqın əzəmətinin nümayişidir. Sanki zülmətin içində qarşısıalınmaz enerji ilə dolu əsas mövzu yetişir. Alət qrupları bir-birinə qoşulduqca mövzu mübarizənin, xalq qəzəbinin obrazına çevrilir. Sonluq sülh və qarşıdakı qələbənin rəmzi kimi səslənir.

***

Gerçəkdən də, Dmitri Şostakoviçin 7-ci simfoniyasını Yalçın Adıgözəlovun idarəsi ilə bizim iki sanballı orkestrin ifasında dinləməyə dəyərdi. Sözün gerçək mənasında, möhtəşəm ifanın, səslənişin arxasında gərgin zəhmət, böyük istedad, sənətinə sonsuz bağlılıq, yaradıcı kollektivi idarə etmək bacarığı durur.

Birnəfəsə ifadan sonra salonu titrədən alqış səsləri uzun müddət kəsmədi. Maestro Adıgözəlov əsl rəhbər səxavəti ilə minnətdarlıq səslərini dəqiqələrdən bəri onun hər jestini, sehrli çubuğunun hər titrəyişini diqqətlə izləyib musiqi sədasına çevirən musiqiçilərlə paylaşdı. Həm də necə! Konsert boyunca onun "belə çal" komandasını dəqiqliklə yerinə yetirən alət qruplarını ayağa qaldırıb alqışın əsl ünvanının onlar olduğunu onların özlərinə, huşyarlıqla orkestri dinməzcə dinləyən bizlərə də anlatdı.

Deyə bilmərəm ki, D.Şostakoviçin ruhumuzu uçuran, vücudumuzu uçunduran bu əsəri tez-tez səhnəmizdə səslənəcək. Çünki bu, bir neçə cəhətdən bir qədər qəliz məsələdir. Amma 7-ci simfoniyanın, böyük rus şairəsi Anna Axmatovanın adqoydusundan sonra "Leninqrad simfoniyası" adlanan əsərin orkestrlərimizin repertuarında olması artıq bir keyfiyyət göstəricisidir.

**Gülcahan Mirməmməd**

# "MədəniyyətimİZ"də pianoçu-bəstəkar Pikə Axundova ilə görüş

Azərbaycan incəsənətinin gənclər arasında təbliği, gənclərin milli-mənəvi dəyərlərə ehtiram və vətənpərvərlik ruhunda yetişməsinə nail olmaq məqsədi daşıyan "MədəniyyətimİZ" layihəsi çərçivəsində növbəti tədbir təşkil edilib.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Qara Qarayevin Ev-Muzeyində Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyinin dəstəyi, "İRƏLİ" İctimai Birliyinin təşkilatçılığı ilə pianoçu-bəstəkar, musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Pikə Axundova ilə görüş keçirilib.



Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova və "İRƏLİ" İctimai Birliyinin layihələrlə iş üzrə katibi Riad Cəbrayılov görüşə gələnləri salamlayaraq Pikə xanımın yaradıcılığı barədə danışıblar.

Sonra Pikə Axundova öz təhsil illərini, müəllimlərini xatırlayıb, yaradıcılıq ideyaları və planları, pedaqoji fəaliyyəti, istedadlı gənclərə qayğı və dəstəyindən söz açıb.

"Mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində müasir musiqinin rolu", "Bəstəkarlıq fəaliyyətində yeni, innovativ yanaşmalar: keçmiş ənənələrə baxış", "İstedadlı gənclərin tanıdılması" kimi mövzular müzakirə olunub. Bəstəkar görüş iştirakçılarının suallarını cavablandırıb.

Pikə Axundovanın öz ifasından "Salam, Şuşa", "Tokkata" fortepiano əsərlərinin, müğənni Zabitə Əliyevanın ifasında bəstəkarın "Qəlbimin səsi" mahnısının səsləndirilməsi görüşün musiqi bəzəyinə çevrilib.

# Bülbülün anadan olmasının 127-ci ildönümü münasibətilə

## Memorial muzeydə xatirə konserti



Bülbülün Memorial Muzeyinin və "Bülbül vokal məktəbi"nin birgə təşkilatçılığı ilə Azərbaycan professional vokal sənətinin banisi, SSRİ Xalq artisti, professor Bülbülün (1897–1961) anadan olmasının 127-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru Fərqanə Cabbarova dahi sənətkarın əziz xatirəsinin 24 il yaşadığı bu evdə mütəmadi olaraq müxtəlif musiqi tədbirləri, sənət görüşləri ilə yad edildiyini vurğulayıb.

Tanınmış vokalçı, Əməkdar artist Ramil Qasımov çıxış edərək dahi müğənninin sənət yolunun davamçısı olmaqdan qürur duyduğunu deyib, Bülbül ənənələrini yaşatmaq, gələcək nəsillərə ötürmək məqsədilə yaratdığı vokal məktəbindən bəhs edib.

Tədbirdə "Bülbül vokal məktəbi"nin tələbələri çıxış ediblər.

# "Mənalı ömrün hekayəti"

## Xalq artisti Elmira Şabanova haqqında kitab




Kino tədqiqatçısı, Əməkdar incəsənət xadimi Aydın Kazımzadənin "Mənalı ömrün hekayəti" adlı kitabı işıq üzü görüb. Kitab görkəmli aktrisa, Xalq artisti, Prezident təqaüdçüsü Elmira Şabanovaya və onun kinematoqrafçılar ailəsinə həsr olunub.

Kitabda bölmələr süjet şəklində verilib. On doqquz süjet və "Elmira Şabanovanın quruluş verdiyi tamaşalar", "Elmira Şabanovanın səhnədə oynadığı rollar" bölmələri maraqla oxunur.

Kitab Xalq artisti Rafiq Əzimovun ön sözü ilə açılır. Sonra rejissor Tahir Əliyevin "Kinomuzun kübar aktrisası" adlı məqaləsi verilir. Məqalədə aktrisanın sənətkarlığını səciyyələndirən xüsusiyyətlərdən bəhs edilir.

Aktrisanın ömür və yaradıcılıq yolu, pedaqoji fəaliyyəti, ailəsində sənətini davam etdirənlər haqqında ətraflı söz açan Aydın Kazımzadə sənədli film təəssüratı yaradan bir iş ortaya qoyub. Kitabda yer alan çoxsaylı fotolar onu daha da dolğun edir.

Məlumdur ki, son illərdə Elmira xanım efirlərdə görünmək, tamaşaçı qarşısına çıxmaq istəmir. Bu, aktrisanı sevən, onu görmək istəyən tamaşaçılar üçün də bir nigarançılıq yaradır. Aydın Kazımzadə bildirir ki, məhz bu amillər onu da narahat etdiyindən belə bir kitab yazmağı qərarlaşdırıb. Elmira xanım əvvəlcə razılıq verməyib və böyük çətinliklə onu kitabın yazılmasına razı salmaq mümkün olub. Aydın müəllim qeyd edir ki, müəllif olaraq onun üçün ən böyük mükafat kitab hazır olandan sonra Elmira xanımın sevinməsi və "Nə yaxşı ki, mən bu kitabı görə bildim" deməsidir.

Qeyd edək ki, "Şərq-Qərb" nəşriyyatında işıq üzü görən kitabın redaktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyevdir.

**Lalə Azəri**

# Azərbaycanlı bəstəkarın şəhidə həsr etdiyi əsər Polşada mükafat qazanıb

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) və Estoniya Musiqi və Teatr Akademiyasının məzunu, beynəlxalq müsabiqələr laureatı, hazırda bəstəkar kimi fəaliyyətini kino və teatr sahəsində davam etdirən Nigar Süleymanın İkinci Qarabağ müharibəsi şəhidi Rəşad Babayevə həsr etdiyi "Simli kvartet" əsəri Polşada keçirilən "WBM" müsabiqəsində birinci yerə layiq görülüb.




BMA-dan bildirilib ki, müsabiqə qalibləri arasında ABŞ, Yaponiya və Çin bəstəkarları da var.

Şəhidə ithaf edilən əsərdə qəhrəmanın yaşantıları, Vətən sevgisi və onun uğrunda canını fəda etməsi əks olunub.

Nigar Süleyman Bülbül adına Orta İxtisas Musiqi Məktəbində Pikə Axundovanın sinfində ilk bəstəkarlıq təhsilini alıb. Eyni zamanda Kəmalə Şıxəliyeva, Nəzakət Heydərova, Ayaz Qəmbərli, Yulizana Kuxmazovanın dərslərində iştirak edib. Məktəbdə oxuduğu illərdə fortepiano üçün pyeslər, violin və fortepiano üçün miniatürlər, simli orkestr üçün "Zülmətin rəqsi", klarnet və fleyta üçün miniatürlər yazıb.

Hələ məktəbli ikən Türkiyədə, Rusiyada müsabiqələrdə iştirak edib. BMA-da təhsilini davam etdirdiyi vaxt Nizami Gəncəviyə həsr olunmuş romans müsabiqəsinin diplomantı, Bakı Caz Festivalının mükafatçısı (2-ci yer) olub. 2021-ci ildə Estoniya Musiqi və Teatr Akademiyasında "Erasmus" proqramı çərçivəsində elektroakustik bəstəkarlıq dərsləri alıb.

# Rusiyalı pianoçunun Bakı Musiqi Akademiyasında ustad dərsi

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 23-25 iyun tarixlərində Bakıda Rusiya Mədəniyyəti Günləri keçirilib.



Mədəniyyət günləri çərçivəsində iyunun 23-də tanınmış rusiyalı pianoçu Aleksey Melnikovun Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında ustad dərsi gerçəkləşib.

Dərs zamanı A.Melnikov öz bilik və təcrübəsini pianoçu tələbələrlə bölüşüb. Gənclərin suallarını cavablandıran musiqiçi onlara öz tövsiyələrini verib.

Qeyd edək ki, A.Melnikov 1990-cı ildə Moskvada doğulub. 2013-cü ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını bitirib. San-Marino, Yaponiya, ABŞ və s. ölkələrdə beynəlxalq müsabiqələrdə qalib və mükafatçı olub. O cümlədən P.İ.Çaykovski adına nüfuzlu müsabiqənin bürünc medalını (2019, Moskva–Sankt-Peterburq) qazanıb.

Hazırda Sankt-Peterburqun Mariinski Teatrında və Moskva Filarmoniyasında simfonik orkestrlərin solisti kimi fəaliyyət göstərir.

# Tatar xalqının mübariz alimi

## Əziz Qubaydullin Azərbaycanda tarix elminin inkişafına töhfə verib

Zaman-zaman ortaq tale yaşadığımız türk xalqları bir-birinin elm, maarif və mədəniyyətinin inkişafı üçün də çalışıblar. Bu yazıda tatar xalqının böyük oğlu, tarixçi, pedaqoq, professor, repressiya qurbanı Əziz Qubaydullin haqqında söz açacağıq. O, Azərbaycanda tarix elminin inkişafına töhfələr verib.

Əziz Salih oğlu Qubaydullin 27 iyun 1887-ci ildə Tatarıstanın Kazan şəhərində tacir ailəsində dünyaya göz açıb. Əvvəlcə molla məktəbində təhsil alır. Səkkiz yaşında "Xalidiyyə" mədrəsəsinə gedir. Burada tələbələrə formal sxolastik məntiq və fəlsəfə ilə yanaşı, Qərb mədəniyyəti, ideoloji mübarizələr tarixi də tədris olunurdu.

Əziz Qubaydullin bu mədrəsədə oxumaqla yanaşı, Rus-tatar məktəbinə də gedir. Görkəmli rus yazıçısı Lev Tolstoyun əsərlərini oxuyur, ədibin həyata baxışına, hadisələrə fərqli yanaşmasına heyran olur.

Kazan şəhərində rusların gündən-günə artması, gənclər arasında fikir ayrılıqları gənc Əzizə də təsir edir. O, xalqçılar, anarxist və sosial demokratlarla yaxından tanış olur. 1904-cü ildə "Xalidiyyə" mədrəsəsini bitirir. 1905-ci ildə Rusiyada baş verən iğtişaşlar tatar gənclərin də diqqətini bu proseslərə cəlb edir. Əziz Qubaydullin də inqilaba qoşulur. Monarxiya və müstəmləkəçilik əleyhinə mübarizə aparır. Dövri mətbuat səhifələrində tatarların haqq və hüquqları ilə bağlı məqalələri dərc edilir. 1909-cu ildə Kazan Universitetinin Hüquq fakültəsinə qəbul olunur. Burada təhsil alan azərbaycanlı həkim, ictimai xadim Soltanməcid Əfəndiyevlə tanış olur. Ancaq onun bu fakültədə təhsili uzun sürmür. "Türk xalqlarının qəhrəmanlıq eposu "Seyd Battal"ın yaranması" adlı tədqiqat əsərini yazır. Əsər universitetin professorları M.M.Xvostov və N.N.Firsovun diqqətini çəkir. Ona Tarix şöbəsinə dəyişilməyi məsləhət görürlər.

Əziz müəllimlərinin, xüsusən xakas əsilli türkoloq Nikolay Fyodoroviç Katanovun məsləhəti ilə "Marko Polo monqol tarixinin araşdırıcısı kimi" mövzusunda diplom işi üzərində işləyir. Diplom işini 1914-cü ildə tamamlayır. Təhsildə qazandığı uğurlara və yazdığı irihəcmli diplom işinə görə universitetin rəhbərliyi tərəfindən birinci dərəcəli diploma layiq görülür. Ona ali məktəbdə qalıb işləmək təklif olunur. Lakin hökumət yanında siyasi etibarsızlığına və tatar olduğuna görə dövlət qulluğuna keçməyə, universitetdə işləməyə icazə verilmir. 1914-cü ildən işlədiyi yeni tipli "Məhəmmədiyyə" tatar mədrəsəsindən də uzaqlaşdırılır.

Kazan qubernatoru onu Sibirə göndərir. Ə.Qubaydullin Orenburq vilayətinin Troitsk şəhərinə gedir. O, buradakı müəllimlər seminariyasında qeyri-rəsmi şəkildə işə götürülür. 1917-ci ilin fevralına kimi orada işləyir.



Bolşeviklər hakimiyyətə gəldikdən sonra Ə.Qubaydullin Kazana qayıdır. Professor N.F.Katanov və tarixçi N.N.Firsovun köməkliyi ilə universitetin Tarix kafedrasında işə götürülür. Qısa vaxt ərzində, 1918-ci ildə "Din tarixi kursu", 1919-cu ildə "Rusiya tarixi kursu" və "Qədim dünya tarixi kursu" dərsliklərini yazır.

1921-ci ildə Şərq Akademiyası və Şərq Pedaqoji İnstitutunda müəllim işləməyə başlayır. "Xəzər xaqanlığının tarixi təcrübəsi", "Bir tatar salnaməsinin məhvi", "Puqaçov üsyanında tatarların iştirakı" və s. mövzularda apardığı araşdırmalar ona böyük nüfuz qazandırır. Bununla belə, tez-tez bolşeviklərin təzyiqi ilə üzləşir. Tatar xalqını azadlığa, müstəmləkəçilər əleyhinə mübarizəyə səsləyən məqalə və çıxışları bolşevikləri narahat edir.

1925-ci ildə Səmərqəndə Rusiya müstəmləkəsi olan Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan, Tatarıstan, Başqırdıstan, Dağıstan, Azərbaycan və digər ölkə və bölgələri azad edib vahid bir dövlət qurmaq istəyi ilə gizli təşkilat qurulur.



Çox keçmir mərkəzi təşkilat Bakıya köçürülür. Təşkilatın bir çox rəhbərləri kimi Ə.Qubaydullin də Bakıya gəlir.

Bakıda onun səmərəli işləməsi və gizli fəaliyyətini davam etdirməsi və təşkilatın formalaşdırması üçün lazımi şərait yaradılır. Həmin vaxt gənclik dostu və tələbə yoldaşı S.Əfəndiyev də burada rəhbər vəzifədə olur. Ə.Qubaydullin Azərbaycan Dövlət Universitetində dosent kimi işə götürülür. Yeni yaradılan Tarix-ictimaiyyət şöbəsinə müdir təyin edilir. Yaradılan şəraitdən səmərəli istifadə edərək 1927-ci ildə "Xəzərlərin mənşəyi məsələsi", "Tatar burjuaziyasının tarixindən" və "Azərbaycan bəyləri və onların tabeliliyində olan kəndlilər", "Teymur imperiyasının tənəzzülü və özbəklər mərhələsi" (1928), "Tatarların mənşəyi məsələsi", "XVI–XVII əsrlərdə tatarların kəndli hərəkatlarında iştirakı" (1929), "İsmayıl Qaspıralının ideologiyasına bir nəzər" (1930) adlı əsərlərini yazır.

Şərq tarixi kafedrasının professoru kimi şöhrəti Azərbaycanın hüdudlarını aşır. 1930-cu ildə Moskva Dövlət Universitetinin də professoru seçilir.

Ə.Qubaydullin pedaqoji fəaliyyətlə yanaşı, tədqiqatlarını da davam etdirir. "Didərgin tatarların sosial inkişafının mərhələləri", "Bakı və ətrafı kəndlər", "Fatih Əmirxanov və tatar ədəbiyyatı", "Türk-tatar xalqları elminin inkişaf tarixi" adlı əsərləri və "Feodal epoxasında SSRİ xalqlarının tarixi kursu", "Kəndli müharibələri" dərs vəsaitləri işıq üzü görür.

Ə.Qubaydullin eyni zamanda gizli təşkilata yeni üzvlərin cəlb edilməsini də diqqətdə saxlayır. Tələbələrinə getdikləri yerlərdə təşkilatın özəklərini yaratmaq tapşırığı verir. Türk xalqlarının aydın sabahları üçün bir anda olsun dincəlməyən Ə.Qubaydullin 17 mart 1937-ci ildə universitet və SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialındakı işindən xaric edilir. Bir müddət sonra həbs olunaraq güllələnir.

**Savalan Fərəcov**

# Qatarların yelindən otların üstünə çilənən şeh...

## Ekoloji təmiz dəmir yolu nəqliyyatı: Azərbaycan dəmir yollarının inkişaf trendləri



Boz dağların ətəyi ilə qıvrıla-qıvrıla gələn qatar kiçik bir dayanacaqda azca yavaşıdı. Əşrəf vaqonun ayaqlığından yerə atıldı. Qatar bunu gözləyirmiş kimi dartınıb silkələndi. Çarxlar relslərin üstündə sürüşüb fırlandı. Parovoz içini təmizləyib bir neçə dəfə güyüldədi və fışıltı ilə yoluna davam etdi. Qumu, torpağı və relslərin altındakı taxtadan belə mazuta bulanmış yolun ətrafındakı otların üstünə elə bil şeh çiləndi...

Azərbaycan nəsrinin böyük ustadlarından İsmayıl Şıxlı "Dəli Kür" romanında bir əsrdən çox öncənin dəmir yolu qatarını bu koloritli ifadələrlə təsvir edir. Hələ at-araba zamanı olsa da, Kür sahilinə ilk parovoz gəlib çıxmışdı. Uzaq yola artıq qatarla çıxırdılar. Dünyada başlanmış İkinci sənaye inqilabının (XIX əsrin ikinci yarısı) aparıcı qüvvəsi də parovozlu qatarlar idi. Bakı–Tiflis dəmir yolu 1883-cü ildə istifadəyə verilmiş, bir il sonra Bakıda inşası bitən ilk vağzal "Tiflis vağzalı" adını almışdı. Yuxarıda adıçəkilən ədəbi qəhrəman da Kür sahilindən bu qatarla elm, maarif dalınca getmişdi.

Amma texniki tərəqqi özü ilə ətraf mühit üçün problemlər də gətirib. Hətta mövzusu tamam başqa olan və 400 səhifəsində cəmi üç dəfə dəmir yolu, parovoz sözlərinə rast gəlinən bu əsərdə də, necə deyərlər, ekoloji çalar (relslərin altındakı taxtadan belə mazuta bulanmış yol) görürük...

**Haşiyə.** Tarix boyunca bəşəriyyəti irəli aparan bir çox yeniliklər kimi, sənaye inqilabları da ictimai rəydə şübhə və bədgümanlıqla müşayiət olunub. 1820-ci illərdə, İngiltərədə at qoşqulu vaqonları parovozlu qatarlar əvəz etməyə başlayan zaman səslənən bədgüman fikirlərdə "ekoloji qayğılar" da sezilirdi. Hərçənd bunda bir az cəhalət, daha çox isə rəqabət (at qoşqulu daşımaların əhəmiyyəti azalacaq deyə) qayğısı vardı. O vaxt ingilis qəzetlərində belə fikirlər geniş yayılmışdı: dəmir yolu inəklərə otlamağa mane olacaq, parovozların səs-küyündən toyuqlar yumurtadan kəsiləcək, havanı zəhərləyən tüstüdən quşlar öləcək, parovoz partlayarsa, qatardakı bütün sərnişinlərin tikəsi ələ gəlməyəcək...

Sonrakı tarix göstərdi ki, əslində, qatar və dəmir yolu, məsələn, gəmiçiliklə müqayisədə, indinin özündə isə hava nəqliyyatına da nisbətən, həm təhlükəsizlik, həm də ekologiyaya az zərər baxımından daha münasib nəqliyyat növüdür.

### Lokomotivlər necə yola çıxdı?

Lakin buna qədər dəmir yolu nəqliyyatı bir neçə inkişaf mərhələsindən keçməli idi. Hələliksə buxar maşınının ixtiraçısı Ceyms Uattın vətənində onun yetirmələrindən Riçard Trevitik ilk parovozu düzəltmiş (1804), onun ardınca digər ingilis mühəndis Corc Stefenson bu işi təkmilləşdirmiş və "Locomotion" ("Hərəkət") adını verdiyi parovoz (tezliklə lokomotiv bütün parovozların ümumi isminə çevrildi) 1825-ci ildə Stokton–Darlinqton dəmir yolu (40 km) ilə kömür vaqonları və fəhlə-sərnişin daşımağa başlamışdı. 1830-cu ildə onun "Raket" adlı parovozu Mançester–Liverpul dəmir yolunda ilk sərnişin qatarını arxasına aldı. Yolun uzunluğu 50 km, sürət 30 km/saat idi. Ondan sonra 1835-ci ildə Belçikada (Mexelen–Brüssel) və Almaniyanın Bavariya əyalətində (Nürnberq–Fürt) dəmir yolu xətləri istifadəyə verildi. XIX əsrin ikinci yarısında ABŞ-də dəmir yolu bumu başlandı və təxminən 50 il ərzində (1916) bu ölkə çəkilən xətlərin ümumi uzunluğuna görə (400 min km) dünyada birinci yerə çıxdı.

Azərbaycanın daxil olduğu Rusiya imperiyasında da dəmir yolu nəqliyyatının inkişafı XIX əsrin ikinci yarısında (1851-ci ildə Sankt-Peterburq–Moskva xəttinin inşası ilə) təşəkkül tapdı. Əsrin dördüncü çərəyində dəmir yolları Cənubi Qafqazı da əhatə etdi və Bakı, Azərbaycan bu prosesdə öndə idi. 1880-ci ildə regionda ilk dəmir yolu xətti (Bakı–Sabunçu) açıldı, üç il sonra Bakı–Tiflis yolu istifadəyə verildi. İndiki Ermənistan ərazisi bu şəbəkəyə daha sonra, Tiflis–Gümrü (1899) xətti ilə qoşuldu.

Sovetləşmədən sonra da Azərbaycan regionda dəmir yolu nəqliyyatı sahəsində aparıcı mövqedə olub. 1926-cı ildə keçmiş SSRİ məkanında ilk dəfə Bakı–Sabunçu xəttində elektrik qatarı hərəkətə buraxılıb və yeni vağzal binası (Sabunçu vağzalı) istifadəyə verilib. Onu da qeyd edək ki, Bakının ən gözəgəlimli memarlıq nümunələrindən olan binada indi Dəmir Yolu Muzeyi yerləşir və onun zəngin ekspozisiyası ölkəmizdə bu nəqliyyatın inkişaf tarixi haqqında dolğun təsəvvür yaradır.

İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə edilməsində Bakı neftinin həlledici rolu dəmiryolçuların da gecə-gündüz çalışması ilə təmin edilib. 1941–45-ci illərdə Azərbaycan dəmir yolları ilə 600 min sistern neft və neft məhsulları, 700 min vaqon yük cəbhəyə göndərilib.

Ötən əsrin ikinci yarısında Azərbaycanda bu sahənin inkişafında yeni mərhələ Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə 70-ci illərdə dəmir yolları şəbəkəsinin genişləndirilməsi, yeni xətlərin (o cümlədən Ağdam–Xankəndi xətti, 1978) çəkilməsi, vaqon-lokomotiv parkının yenilənməsi ilə yanaşı, xidmət keyfiyyətinin yaxşılaşdırılması üçün də mühüm addımlar atılıb. 1976-cı ildə istifadəyə verilən Bakı vağzalının 16 mərtəbəli yeni binası bunun nümunəsi idi. 2015–16-cı illərdə aparılan əsaslı yenidənqurma işlərindən sonra funksionallığı daha da artan və ən müasir texnoloji yeniliklərlə təchiz edilən Bakı Dəmir Yolu Vağzalı bu gün sərnişinlərə yüksək xidmət səviyyəsi ilə seçilir.



### Dəmir yollarında dünya standartları ilə ayaqlaşmaq

Ümumiyyətlə, son illər Prezident İlham Əliyevin xüsusi diqqət-qayğısı sayəsində Azərbaycan dəmir yolları həm texniki tərəqqi üzrə dünya standartları ilə ayaqlaşmaq, həm də bu nəqliyyat sahəsinin dövlət üçün strateji önəmi baxımından böyük inkişaf mərhələsi olub. 2017-ci ildə Şərq–Qərb bağlantısının vacib seqmenti olan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu açılıb. Həyata keçirilən məqsədyönlü strategiya sayəsində Azərbaycan polad magistralları ilə Şimal–Cənub istiqamətlərində də mühüm nəqliyyat qovşağına çevrilməkdədir.

Yeniləşmə prosesi sərnişin qatarları parkında xüsusilə bariz görünür. "Azərbaycan Dəmir Yolları" (ADY) QSC tərəfindən 2015-ci ildə yenidən qurulan Bakı–Sumqayıt, 2017-ci ildə əsaslı şəkildə yenilənən Bakı sərnişin – Sabunçu, 2020-ci ildə isə Abşeron dairəvi dəmir yolu xətləri üzrə, eləcə də Bakı–Ağstafa–Bakı və Bakı–Qəbələ–Bakı marşrutları üzrə "Stadler Rail Group" (İsveçrə) şirkətinin istehsalı olan KİSS markalı ən müasir elektrik qatarları istifadə olunur. Bu sıraya 2023-cü ildə "Stadler"dən alınan daha üstün imkanlı FLİRT markalı 4 qatar (ümumilikdə 10 qatar sifariş edilib) da əlavə olunub. Bu qatarlar daxili mühərrik sistemi hesabına istehsal olunan enerji ilə elektrik kontakt şəbəkə xətti olmayan (və ya qəfil kəsilən) yollarda da qrafik üzrə hərəkət edə bilir.

Yüksək dünya standartları ilə ayaqlaşmaq eyni zamanda inkişaf tempini dövrün çağırışları və ekoloji reallıqları ilə uzlaşdırmaq deməkdir. Ekoloji təmiz dəmir yolu bu gün, dünyanın qabaqcıl ölkələrində olduğu kimi, Azərbaycanda da sahənin əsas inkişaf trendidir. ADY lokomotiv parkının yenilənməsində də bunu nəzərdə saxlayır. "Alstom" şirkəti (Fransa) ilə bağlanmış müqavilə əsasında son bir neçə ildə 40 elektrovoz alınıb. Hazırda ADY-nin yük lokomotivləri parkının təxminən yarısını (71) elektrovozlar təşkil edir.

### Ekoloji cəhətdən ən təmiz nəqliyyat növü

Dəmir yolu ekoloji cəhətdən ən təmiz nəqliyyat növüdür. Avropa Ətraf Mühit Agentliyinin (EEA) tədqiqatlarına görə, bu yolda 1 konteynerin daşınmasına görə atmosferə buraxılan karbon qazı dəniz nəqliyyatına nisbətən 40 faiz azdır. Hazırda dünyada sərnişindaşımanın 40 faizi dəmir yolu üzərinə düşür, bu nəqliyyatın atmosferi çirkləndirən parnik qazlarında payı isə avtomobil və ya təyyarə ilə müqayisədə qat-qat az – 2 faizdir. Bu göstərici əsas etibarilə elektrik qatarları (karbon emissiyası, demək olar ki, yoxdur) hesabına əldə olunur.

Azərbaycanda da dəmir yolu şəbəkəsinin elektrikləşdirilməsi, müasir texnologiyaların tətbiqi ekoloji cəhətdən daha təmiz və effektiv nəqliyyat sisteminin yaradılmasına xidmət edir. İstismar müddəti bitmiş qatarların istifadəsi dayandırılıb. Bu gün dünyada elektrikli yollar ümumilikdə dəmir yollarının 20-25 faizini təşkil edir. Azərbaycanın dəmir yollarının 60 faizi elektrikləşdirilib. Bu rəqəm enerji effektivliyinin artırılması və ətraf mühitə olan təsirin minimuma endirilməsinə yönəlmiş layihələr çərçivəsində ildən-ilə artmaqdadır. Müqayisə üçün: Avropa İttifaqı ölkələri üzrə elektrikli yollar (orta göstərici) 57 faizdir.

Ölkəmizdə elektrikləşdirilmiş dəmir yollarının əsas marşrutları arasında həm yük, həm də sərnişin daşımaları üçün əhəmiyyətli olan Bakı–Sumqayıt, Bakı–Gəncə və Bakı–Ağstafa xətləri var. Şimal-Cənub nəqliyyat dəhlizinin vacib komponenti olan Bakı–Astara dəmir yolu infrastrukturunun yenilənməsi, habelə işğaldan azad edilmiş torpaqlara "Böyük Qayıdış"ın polad magistrallarının istifadəyə verilməsi elektrikləşdirilmiş dəmir yolları şəbəkəsini daha da böyüdəcək.

Onu da qeyd etmək lazımdır ki, ADY Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan edilən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrdə (inşası davam edən Horadiz–Ağbənd və Bərdə–Ağdam, bərpası üçün layihələndirmə işlərinə başlanılan Ağdam–Xankəndi yolları) ekoloji faktoru (o cümlədən yol zolağı boyunca yaşıl örtüyün qorunması, ağacların əkilməsi) xüsusi diqqətdə saxlayır. Horadiz–Ağbənd xəttinin 85-ci kilometrində, Mincivan stansiyasının yaxınlığında meşəlik ərazinin zərər görməməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmış şəkildə ağacların yerinin dəyişdirilməsi də bu qəbil addımlardandır.

### Üstəgəl, sürət və vaxta qənaət

Ekoloji təmiz nəqliyyat həm də daha çox sürət, vaxta qənaət deməkdir. Dünyanın qabaqcıl ölkələrində xüsusilə sərnişindaşımada elektrovozlar yanacaqla işləyən və karbon emissiyası olan lokomotivləri dəmir yollarından sıxışdırıb çıxarır. Sürətlə bağlı göstəricilərə nəzər salsaq, teplovoz lokomotivləri ilə maksimum 200 km/saatla getmək olar. Elektrik qatarları isə modernizə edilmiş yollarda 250-300, "maqnit yastıq" tipli relslər üzərində 350-400, hətta sınaqlarda 500-600 km/saatadək sürətlə şütüyür və az qala təyyarələrlə yarışa girir. Yüksəksürətli qatarlar erası ötən əsrin 60-cı illərində Yaponiyada başlayıb, sonra Qərbi Avropada yayılıb, XXI əsrin əvvəlində isə bu sahədə dünya lideri Çin hesab olunur. Ekoloji cəhətdən təmiz dəmir yollarının artması konkret hədəfli təşəbbüslərlə də müşayiət olunur. Məsələn, Şərq-Qərb bağlantılı "Kəmər və yol" təşəbbüsünün müəllifi Çin 2030-cu ilədək bu nəqliyyatda karbon emissiyasını əsrin əvvəli ilə müqayisədə 65, Avropa İttifaqı isə 55 faiz azaltmağı planlaşdırır.

Azərbaycanda da bu istiqamətin prioritet seçilməsi, ADY-nin fəaliyyətinin ekoloji təmiz nəqliyyata daha çox yönəlməsi həm də gələcək nəsillər üçün sağlam mühit yaratmağa xidmət edir. Son illərdə həyata keçirilən infrastruktur yenilikləri, elektrikləşdirmə layihələri, beynəlxalq əməkdaşlıq zəminində bundan sonra atılacaq addımlar ölkəmizin ekoloji təmiz nəqliyyat sahəsində dünyada ön sıralara çıxacağına əminlik yaradır. ADY-nin 2030-cu ilədək strateji məqsədlərini ehtiva edən proqram sənəddə də bu istiqamətlərə xüsusi yer ayrılıb.

2023-cü ildə BMT-nin Qlobal Sazişinə üzv olan ADY ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) sahələrini əhatə edən fəaliyyət proqramını təkmilləşdirib. ESG tədbirləri çərçivəsində ADY ekoloji təmiz enerjidən istifadəni də genişləndirir. "Yaşıl enerji"nin təşviqi məqsədilə Biləcəri və Gəncə lokomotiv təmiri depolarında ümumilikdə 750-dən çox günəş paneli quraşdırılıb və bundan depoların işıqlandırılmasında, isti su təminatında istifadə olunur. "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə olan bu kimi addımlar növbəti illərdə daha da artacaq.

Dəmir yolu nəqliyyatında əldə olunan nəticələr sahənin gələcək inkişafı üçün mühüm perspektivlər vəd edir. Ötən il Azərbaycan dəmir yolları ilə 18 milyon tondan çox yük, o cümlədən 7 milyon tona yaxın tranzit yükü daşınıb. Bu yaxınlarda (may 2024) BTQ xəttinin Gürcüstan seqmentində rekonstruksiya və genişləndirmə işlərinin yekunlaşması (xəttin buraxılış gücü ildə 5 milyon tonadək artırılıb) cari ilin statistikasının daha yüksək olacağını deməyə əsas verir. Sərnişindaşımada isə ADY 2023-cü ildə rekord göstəriciyə (7 milyon sərnişin, 2022-ci ilə nisbətən 38 faiz çox) nail olub. Sözsüz ki, pandemiyanın "qalığı" kimi quru sərhədləri bağlı qalmasaydı və dəmir yollarının beynəlxalq sərnişindaşımada payı olsaydı, bu göstərici daha da artardı.

Ümid edək ki, yaxın perspektivdə bu problem də aradan qalxacaq, ən əsası isə, xeyli vaxtdır gözlənilən marşrut reallaşacaq və bizlər "Bakı–Tbilisi–Qars sərnişin qatarına minik başlanır" anonsunu, nəhayət, eşidəcəyik. Təbii ki, ən müasir, sürətli və ekoloji təmiz elektrik qatarı ilə. Bax, o zaman Kür sahilindən şütüyərək keçəcək o qatarın nəmli yelindən yolboyu otların üstünə əsl şeh çilənəcək...

**Vüqar Orxan**

*Yazı "Azərbaycan Dəmir Yolları" QSC və Azərbaycan Mətbuat Şurasının kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirdiyi iqlim təşəbbüsləri müsabiqəsinə təqdim olunur*

## Foto yaddaş

Azərbaycanın görkəmli bəstəkarı Arif Məlikovun böyük türk şairi və dramaturqu Nazim Hikmətin pyesi əsasında yaratdığı "Məhəbbət əfsanəsi" baletinin premyerası 1961-ci ildə Leninqrad Akademik Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Akademik Mariinski Teatrı) olub. Dünyanın bir çox səhnələrini bəzəyən möhtəşəm əsərin ən çox nümayiş olunduğu məkan elə bu teatrdır. 60 il əvvələ aid bu şəkil də orada çəkilib. Şəkildə "Məhəbbət əfsanəsi"nin əsas yaradıcı heyətindən təkcə quruluşçu baletmeyster Yuri Qriqoroviç yoxdur.

**Fotoda:** "Məhəbbət əfsanəsi" baletinin müəllif və iştirakçıları Kirov adına Leninqrad Akademik Opera və Balet Teatrında (soldan sağa): balerinalar İrina Kolpakova (Şirin), Olqa Moiseyeva (Mehmene banu), libretto müəllifi Nazim Hikmət, bəstəkar Arif Məlikov, dirijor Niyazi, rəssam Simon Virsaladze (1964-cü il).

*Azərbaycan Respublikası Kino Foto Sənədləri Arxivi (inventar N 2360)*


"Məhəbbət əfsanəsi"nin yaradıcıları bir arada

# Anadır arzulara hər zaman Qarabağ...

## Bir nəğmənin izində



Son illər, daha doğrusu, İkinci Qarabağ – 44 günlük Vətən müharibəsindən sonra bu mahnıya başqa ovqatda qulaq asır, ara-sıra zümzümə də edirəm. Düşünürəm ki, illərlə işğalda qalıb, həsrətdən saralıb-solan yurd yerlərimiz həm də bu nəğmələrlə yenidən cana gəlir...

Qəlbləri titrədən nəğmələrimiz arasında öz yeri olan "Qarabağ". Yazılmasından uzun illər keçməsinə rəğmən səs texnikası və istedadı, janr və üslubundan asılı olmayaraq, neçə-neçə ifaçının repertuarını bəzəyib və bəzəməkdə davam edir.

"Anadır arzulara hər zaman Qarabağ", bir çox hallarda da "Can Qarabağ" kimi qeyd olunan mahnı, əslində, "Qarabağ" adlanır.

Dinləyici auditoriyası bu mahnını ilk dəfə 1972-ci ildə – hələ o zaman gənc xanəndə kimi populyarlaşmağa başlayan Xalq artisti, muğam və xalq mahnılarımızın mahir ifaçısı Arif Babayevin ifasında eşidib. Sözsüz ki, ifa manerası və ümumilikdə mahnının melodiyası xalq üslubuna yaxın olduğundan elə belə də bilinib.

Təsadüfi deyil ki, indi də bir çoxları bu nəğməni xalq mahnısı hesab edir. Əslində, bu mahnı da çox sevilən saysız nəğmələr müəllifi Bəhram Nəsibov (1942–1998) yaradıcılığına məxsusdur. Bəstəkarın anadan olmasının növbəti ildönümündə onu bir də bu mahnının "qanadlarında" yad etməyə dəyər...

B.Nəsibovun milli mahnı janrının inkişafında misilsiz xidmətləri var. O, Azərbaycan musiqisində istedadı, xalq musiqisindən qaynaqlanan incə duyumu ilə seçilən nadir sənətçilərdən idi. Professional musiqi təhsili olmasa da, şair, dramaturq, publisist və bəstəkar kimi 300-dək mahnıya can verən B.Nəsibov, təəssüf ki, qəribə, yaradıcı insan üçün ağrılı bir sənət ömrü yaşayıb. Mahnıları "xalq mahnısı" və "təsnif" kimi səslənib...

Yeri gəlmişkən qeyd edək ki, B.Nəsibov Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Musiqili komediya şöbəsində Soltan Hacıbəyovun kursunda oxumağa başlayıb. Ali təhsilini başa vura bilməsə də, nəğmələri onun sənət dünyasını bütöv şəkildə musiqisevərlərə təqdim edib.

Maraqlısı budur ki, bəstəkarın ilk mahnısı, daha doğrusu, onu ictimaiyyətə təqdim edən ilk yaradıcılıq işi də məhz "Qarabağ"dır.

Müəllif bu mahnını 1968-ci ildə yazıb. Əvvəl tarda ifa edən sənətkar sonradan sənət dostlarının təklifi ilə el məclislərində iştirak etmək üçün dövrün populyar aləti olan gitarada çalmağa başlayıb. Xalq onu mahir gitara ifaçısı kimi də sevib, nəinki Qarabağ elində, bütün bölgələrdə məclislərə dəvət edib. Buna rəğmən bütün bəstələrini tar üzərində yazıb.

Xalq artisti Arif Babayevin B.Nəsibovla bağlı xatirələrində bir məqam diqqətimi xüsusən cəlb etdi. Sən demə, ifaçı ona təklif olunan bu mahnını bir neçə il sonra oxuyub. Necə deyərlər, tutacağına şübhə edib. Yalnız bir neçə il sonra Arif Babayev özü bu mahnını xatırladıb və tədbirlərin birində oxuyub. Lentə alınan nəğmə qısa zamanda ritmik mahnı kimi istər konsertlərdə, istərsə də məclislərdə sevilərək dinlənilib.

Beləcə, B.Nəsibovun sonralar yazacağı "Qal, sənə qurban", "Ey nazlı Dilbərim", "Neyçün bəs", "Ay dəli ceyran", "Səni qəmli görəndə", "Deyin hardadır?!", "Xatırla məni" mahnıları kimi "Qarabağ" da ifaçılarına böyük sevgi qazandırıb.



Əksər mahnılarının mətn müəllifi də özü olan B.Nəsibov lirik şeirlər yazıb. Əksəriyyəti mahnı mətni olsa da, hələ bəstəkarını gözləyən neçə-neçə şeiri ondan miras qalıb.

Qəribədir, bundan əvvəl bir neçə mahnısı səslənsə də, bəstəkara şöhrəti də məhz şövq ilə yazılmış "Qarabağ" mahnısı gətirib. Efirdə mahnıları səslənən, lakin adı çəkilməyən, yaratdığı əsərlərin şöhrətini kənardan izləyən, müəllif kimi konsert proqramlarında, televiziya ekranındakı titrlərdə adını görməməkdən giley-güzarlı olan bəstəkar ürəyini yeni-yeni mahnılarla soyudar, nə vaxtsa bu haqsızlığın sona yetəcəyinə ümid bəsləyərmiş.

Diplomsuz bəstəkarın bu mahnısı Azərbaycan sərhədlərini aşandan sonra da heç nə dəyişmir. "Qarabağ bülbülləri" kimi yeni kollektivin, bir anda sənət dünyasında günəş kimi parlayan heyətin ifasında səslənir. Murad Rzayevin yaratdığı bu kollektiv, daha doğrusu, onun dörd məktəbli üzvü haqqında SSRİ Mərkəzi Televiziyasının sifarişi ilə 1977-ci ildə qısametrajlı film çəkilir. Kvartetin ifasında "Qarabağ" mahnısından parça kinolentə daxil edilsə də, yenə müəllifinin adı qeyd olunmur.

Mahnının təsirli, maraqlı ifaçılarından biri də Əməkdar artist, xanəndə Süleyman Abdullayev olub. İfaçı 1978-ci ildə teleradionun sifarişi ilə Yeni il konserti üçün bu mahnını da lentə yazdırır. Bu dəfə ona muğam hissəsini də əlavə elətdirir. Amma proqram tərtibatçıları vaxtı bəhanə gətirərək məhz muğam hissəsinin çıxarılması şərti ilə mahnını efirə verirlər.

Mahnının müəllifsiz qeydi ilə son ifaçısı bəstəkar-müğənni Tamilla Məmmədzadə (1984) olur. O dönəmədək Azərbaycanın dilbər guşəsi Qarabağı tərənnüm edən mahnı 90-cı illərdən, yeni qan-qadalı illərin başlaması ilə öz xarakter və ideya yükünü də dəyişdi. "Qarabağ" mahnısı nisgil kimi, ağrı kimi, yanğı kimi, həsrət kimi ruhumuzun haray ladına kökləndi. Təbii ki, bu dəfə müəllifi, onun nisgilli yaradıcılıq yolu, həsrət dolu həyat hekayəti, Qarabağsızlıq əzabları da ona qoşuldu.

Bu dövrdə mahnıya müraciət edənlərin sayı daha da artır. Xalq artistləri Mənsum İbrahimov, Nəzakət Teymurova, Aygün Bayramova, Əməkdar artistlər Yaqut Abdullayeva, Aygün Bəylər, Təyyar Bayramov, Səbuhi İbayev, xanəndələr Elnur Zeynalov, Qoçaq Əsgərov kimi neçə-neçə ifaçının repertuarını bəzəyir...

Budur, Qarabağ azaddır və yenə də orada "Gül açır qəlbimizin ən şirin arzuları". Eləcə də Bəhram Nəsibovun müəllif haqqı...

**Həmidə Nizamiqızı**

# Musiqi ilə yaşanan ömür

Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış simalarından olan Əməkdar incəsənət xadimi, professor Məmmədağa Umudov musiqinin müxtəlif janrlarında dəyərli əsərlər yaradıb. Onun əsərlərinin əsas qayəsi milli köklər zəminində intonasiyalarla bağlıdır. Bu da ondan irəli gəlir ki, Məmmədağa Umudov musiqi sənətinə tar alətində ifaçılıqla başlayıb və sonra bəstəkarlığa qədəm qoyub. Unudulmaz sənətkarımız Cövdət Hacıyevdən dərs alan bəstəkarın əsərlərində milli və simfonik musiqinin vəhdəti mühüm yer tutur.



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Milli Konservatoriyanın professoru Jalə Qulamovanın Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) xətti ilə nəşr olunan "Məmmədağa Umudov" kitabından oxuyuruq: "Yaradıcılığa əsasən simfonik, eləcə də kamera musiqisi sahəsində başlayan istedadlı bəstəkarın maraq dairəsinin genişliyi, bu günün tələblərinə cavab vermək səyi onun həm tarixi keçmişimizin, həm də müasir dövrümüzün ən müxtəlif mövzularına, obrazlarına müraciət etməsi böyük maraq doğurur...". Bu fikrə istinad edərək bəstəkarın əsərlərində tariximizlə yanaşı, Zəfər ruhlu bugünümüzün də tərənnümünü qeyd edə bilərik. Bu əsərlərdən Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunan xor və simfonik orkestr üçün "Cümhuriyyət marşı", "Qələbəyə doğru" 2 marş, xor üçün "Sülhdür məramımız", "Çahargah" muğam kompozisiyası, "Qarabağ Azərbaycandır!" və digər əsərlərinin adını çəkə bilərik.

Məmmədağa Umudovun pedaqoji fəaliyyətini də ayrıca qeyd etmək gərəkdir. O, təcrübəli, tədris prosesinin bütün incəliklərinə bələd olan tələbkar müəllimdir. Yalnız tələbələrinə dərs prosesini aşılamaqla deyil, onlar üçün tədris proqramlarının yazılmasında da Məmmədağa müəllimin imzası var. Onun istər xalq çalğı alətləri, istərsə də simfonik orkestrin tərkibinə daxil olan alətlərin tədrisinə dair "Alətşünaslıq" dərsliyi musiqi təmayüllü ali və orta ixtisas məktəbləri və tələbələr üçün dəyərli mənbədir. Bu dərslikdə alətlərin tarixi, quruluşu, səslənməsi və ifa üslubları haqqında bilgilər öz əksini tapır.

Azərbaycan musiqi sənətində öz yeri, öz dəst-xətti olan Məmmədağa Umudov həyatının və yaradıcılığının daha kamil dövrünü yaşayır. Mayın 27-də bəstəkarın anadan olmasının 75 illiyi tamam olub. Müxtəlif musiqi ocaqlarında yubilyarla keçirilən görüşlərdə onun həm bəstəkar, həm də pedaqoq kimi fəaliyyətindən ətraflı söhbət açılır. Qara Qarayevin Ev-Muzeyində, Bəstəkarlar İttifaqında keçirilən tədbirlər bu qəbildəndir.

Bəstəkarın doğum günündə ABİ-də təşkil olunan tədbiri ittifaqın sədri Xalq artisti, professor Firəngiz Əlizadə açaraq Məmmədağa Umudovun yaradıcılığından bəhs etdi. Qeyd etdi ki, ittifaqın idarə heyətinin üzvü kimi keçirilən tədbirlərdə fəal iştirak edir, bu tədbirlərdə onun "Qobustan" simfonik uvertürası, simli alətlər üçün simfoniyası səslənib. Bununla yanaşı, bəstəkarın əsərlərinin ölkəmizin hüdudlarından kənarda da səslənməsi Azərbaycan musiqisinə böyük uğur və töhfədir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Jalə Qulamova "Məmmədağa Umudovun yaradıcılıq portreti", Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Akif Quliyev "Məmmədağa Umudovun pedaqoji fəaliyyəti", sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı "Məmmədağa Umudovun yaradıcılığında vətənpərvərlik mövzusu" üzrə çıxış etdilər.

Tədbirin musiqi hissəsində bəstəkarın "Cümhuriyyət marşı" (söz: V.Əhməd; AMK-nın xoru, xormeyster T.Yusifova; Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, dirijor M.Mehmandarov), violin ilə fortepiano üçün "Kompozisiya" (CSO Ankara, Türkiyə; ifa edirlər: Cihat Aşkın – violin, Can Okan – fortepiano), "Qarabağ Azərbaycandır!" (Azərbaycan Dövlət Simfonik Orkestri, dirijor M.Mehmandarov) əsərlərinin videoyazısı nümayiş olundu.

Sonda Məmmədağa Umudov tədbirə təşrif buyuran elm və incəsənət xadimlərinə, eləcə də Bəstəkarlar İttifaqındakı həmkarlarına təşəkkürünü bildirdi.

Biz də hörmətli sənətkarımıza musiqi mədəniyyətimizə layiqli töhfələr verdiyi üçün təşəkkür bildirir və cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Fidan Nəsirova-Əhmədova**
**Ü.Hacıbəyli adına BMA-nın elmi işçisi**

## Xatirə təqvimi

**24 – 27 iyun**

### Azərbaycan

**24 iyun 1944** – Əməkdar mədəniyyət işçisi, kino istehsalı təşkilatçısı Faiq Məmmədəli oğlu Əliyev (1944–2015) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında, Dövlət Film Fondunda işləyib.

**24 iyun 1939** – Cənubi Azərbaycan yazıçısı Səməd Behrəngi (1939 – 31.8.1968) Təbrizdə anadan olub. "Ulduz və qarğalar", "Balaca qara balıq" və s. kitabların müəllifidir. Azərbaycan nağıllarını fars dilinə tərcümə edib.

**24 iyun 1954** – Əməkdar mədəniyyət işçisi Vaqif Mahmud oğlu Bağırzadə (1954 – 7.3.2021) Bakıda anadan olub. 2003–2020-ci illərdə Bakı Dövlət Sirkinin direktoru işləyib.

**24 iyun 1955** – Tanınmış jurnalist Nəcəf Adil oğlu Nəcəfov (1955 – 17.12.1999) Bakıda doğulub. Ali Sovetin deputatı olub. Ölümündən sonra "Şöhrət" ordeni ilə (2005) təltif edilib.

**24 iyun 1985** – Əməkdar artist Süsən Hacı Aslan qızı Məcidova (14.10.1916 – 1985) vəfat edib. Gənc Tamaşaçılar Teatrında çalışıb, "Bir cənub şəhərində", "Bizim Cəbiş müəllim" və s. filmlərdə çəkilib.

**24 iyun 2008** – Parisdə, UNESCO-nun mənzil-qərargahında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının (müsəlman Şərqində ilk opera) 100 illiyi qeyd edilib.

**25 iyun 1907** – Xalq artisti Sona Salman qızı Hacıyeva (1907 – 24.12.1979) Şəkidə doğulub. 1923-cü ildən Akademik Dram Teatrının aktrisası olub. "Bəxtiyar", "O olmasın, bu olsun", "Qızmar günəş altında" və s. filmlərdə çəkilib.

**25 iyun 1939** – Əməkdar mədəniyyət işçisi Adil Soltan oğlu İsmayılov (1939–2011) anadan olub. 1959-cu ildən "Azərbaycanfilm" kinostudiyasında çalışıb, bir sıra filmlərin 2-ci rejissoru olub.

**25 iyun 1940** – Əməkdar artist, müğənni Yaşar Abutalıb oğlu Səfərov (1940–2007) Naxçıvan MR Şahbuz rayonunda doğulub. Azərbaycan Televiziyası və Radiosunun solisti olub.

**25 iyun 1943** – Əməkdar mədəniyyət işçisi, aşıq Əlixan Abbasqulu oğlu Niftəliyev (1943 – 13.11.2022) Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub.

**25 iyun 1980** – Yazıçı, ssenarist, rejissor, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəyli (22.12.1920 – 1980) vəfat edib. "Uzaq sahillərdə" (İ.Qasımovla birgə), "Cəbhədən-cəbhəyə" romanlarının, pyeslərin müəllifidir. "Telefonçu qız", "Bizim Cəbiş müəllim", "Nəsimi" filmlərinə quruluş verib.

**26 iyun 1922** – Əməkdar memar Şəfiqə Mikayıl qızı Zeynalova (1922-1979) anadan olub.

**26 iyun 1929** – Əməkdar elm xadimi, həkim-yazıçı Nurəddin Məmmədbağır oğlu Rzayev (1929 – 17.10.2011) Gədəbəy rayonunda doğulub. Türkologiya, tarix, ədəbiyyat və s. mövzularda elmi-publisistik məqalələrin müəllifidir.

**26 iyun 1939** – Musiqişünas alim, fəlsəfə elmləri doktoru, professor Babək Osman oğlu Qurbanov (1939 – 28.3.2019) Qazax rayonunda anadan olub. Uzun illər Türkiyədə Qaziantep Universitetinin Dövlət Konservatoriyasında çalışıb.

**26 iyun 1945** – Əməkdar incəsənət xadimi, kinooperator Valeri Sultan oğlu Kərimov (1945 – 9.3.1998) Bakıda doğulub. 1974-cü ildən "Azərbaycanfilm"də işləyib. Çəkdiyi filmlər: "Alma almaya bənzər", "Arxadan vurulan zərbə", "Qızıl uçurum", "Sizi dünyalar qədər sevirdim" və s.

**26 iyun 1946** – Əməkdar artist Əli Məmməd oğlu Salahlı (Salayev; 1946–2005) Masallı rayonunda doğulub. Lənkəran Dövlət Dram Teatrının aktyoru olub.

**27 iyun 1951** – Əməkdar incəsənət xadimi, aşıq Əsəd Əhməd (Məhəmməd) oğlu Rzayev (1874, Tovuz – 1951) vəfat edib.

**27 iyun 2013** – Xalq artisti, görkəmli aktyor Siyavuş Məmmədağa oğlu Aslan (5.9.1935 – 2013) vəfat edib. Musiqili Komediya, Akademik Milli Dram teatrlarında çalışıb, kinoda maraqlı obrazlar qalereyası yaradıb.

### Dünya

**24 iyun 1912** – Rusiyanın Xalq artisti Sergey Filippov (1912–1990) anadan olub. Filmləri: "12 stul", "İvan Vasilyeviç peşəsini dəyişir" və s. Azərbaycanda "Alma almaya bənzər" filmində çəkilib.

**24 iyun 1930** – Fransız rejissoru, "yeni dalğa"nın tanınmış nümayəndəsi Klod Şabrol (Claude Chabrol; 1930–2010) anadan olub. "Qəssab", "Bayquşun çığırtısı" və s. filmləri çəkib.

**25 iyun 1709** – İtaliya bəstəkarı Françesko Arayya (Francesco Domenico Araia; 1709-1770) anadan olub. "Semiramida", "Aleksandra Hindistanda" və s. operaların müəllifidir.

**25 iyun 1903** – İngilis yazıçısı Corc Oruell (George Orwell – Eric Arthur Blair; 1903–1950) anadan olub. Əsərləri: "Heyvan tövləsi" (povest), "1984" (antiutopiya-roman).

**25 iyun 1963** – Yunan əsilli ingilis müğənnisi və bəstəkarı Corc Maykl (George Michael – əsl adı Georgios Kyriakos Panayiotou; 1963–2016) anadan olub.

**26 iyun 1763** – İngilis rəssamı Corc Morland (George Morland; 1763–1804) anadan olub.

**26 iyun 1892** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1938) Perl Bak (Pearl Sydenstricker Buck; 1892–1973) anadan olub. Əsərləri: "Şərq küləyi, qərb küləyi", "Dağılan ev", "Böyük dalğa" və s.

**27 iyun 1941** – Polşa kinorejissoru Kşiştof Keslovski (1941–1996) anadan olub. "Həyatın rəngləri", "Dekaloq" və s. filmlərin müəllifidir.

**Hazırladı: V.Orxan**

# Əməkdar rəssam İsa Məmmədov vəfat edib

Tanınmış fırça ustası, pedaqoq, Əməkdar rəssam İsa Məmmədov 22 iyun 2024-cü il tarixində, 68 yaşında vəfat edib.



İsa Məmməd oğlu Məmmədov 5 mart 1956-cı ildə Qərbi Azərbaycanda, indiki Ermənistan Respublikasının Qafan rayonunda anadan olub.

1979-cu ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1988-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rəngkarlıq fakültəsini bitirib.

Rəssamın "Göl kənarında" (1993), "Abşeron bağları" (1997), "Toxucu qadın" (1998), "Bakı bağları" (1999), "Çətirli qadın" (2000), "Bakı Venesiyası" (2005), "Aşıq Pəri" (2005), "İsmayıllı" (2013) və s. kimi əsərləri sənətsevərlər tərəfindən maraqla qarşılanıb.

Türkiyədə (2009), Almaniyada ("Bakı-Berlin" qalereyası, 2010), eləcə də Bakıda sərgiləri keçirilib.

İsa Məmmədov uzun müddət Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyət göstərib. Dövlət Rəssamlıq Akademiyasının Muzey-sərgi kompleksində iki dəfə (2016, 2020) fərdi sərgiləri də təşkil edilib.

Sənətkar 2021-ci ildə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Əməkdar rəssam" fəxri adına layiq görülüb. O, Azərbaycan Rəssamlar İttifaqının və UNESCO-nun nəzdindəki Rəssamlar Birliyinin üzvü idi.

Allah rəhmət eləsin.

№46 (2111)
26 iyun 2024
www.medeniyyet.az

# “Mədəniyyət əlifbası” – Azərbaycanla hərfbəhərf tanışlıq

## Kitabın yeni nəşri Almaniyada təqdim olunub



Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində “Əlifba: A Cultural Alphabet” kitabının təqdimatı olub. Tədbirdə mədəniyyət, incəsənət nümayəndələri, dizaynerlər, influenserlər, kitab mağazalarının sahibləri, Bir sıra ölkələrin Berlindəki səfirliklərinin əməkdaşları, Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Rəngarəng illüstrasiyalardan ibarət “Əlifba: A Cultural Alphabet” kitabı həm böyüklər, həm də uşaqlar üçün nəzərdə tutulmuş Azərbaycan əlifbasıdır. Kitabda Azərbaycan əlifbasının hər bir hərfi ölkəmizdəki memarlıq abidələri, sənət əsərləri, xalqımızın tarixi ənənələri və folkloru ilə bağlıdır.

Layihənin ideya müəllifi “Nargis” jurnalının baş redaktoru Ülviyyə Mahmuddur. Alman, ingilis, ispan və italyan dillərində təqdim olunan nəşrin əsas məqsədi ölkəmizin tarixini, mədəni irsini və Azərbaycan dilini təbliğ etməkdir.

Təqdimatda Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev və “Nargis” jurnalının baş redaktoru Ülviyyə Mahmud çıxış ediblər.

Sonra qonaqlar “History in Letters” (“Məktublarda tarix”) filmini izləməyə dəvət ediliblər. Sənədli animasiya filmi tamaşaçıları əlifba prizmasından Azərbaycan mədəniyyəti və tarixi ilə tanış edir. Bu həm də tamaşaçını həqiqətin kəşfinə və sənətə olan sevginin gücünə sövq edən fəlsəfi axtarışdır.

Filmin rejissoru Meran İsmayılsoy, ssenari müəllifi Ağamehdi Abidov, animatoru Kənan Şeyxzamanlı, sponsoru BP şirkətidir.



Qonaqlar Azərbaycanın Xalq artisti, xanəndə Alim Qasımovun və Əməkdar artist, pianoçu İsfar Sarabskinin ifasında musiqili proqramın müşayiəti ilə Azərbaycan mətbəxinin ləziz təamlarından da dadıblar. Musiqili proqram muğamın və elektron ritmlərin sintezi əsasında yaradılan unikal kompozisiya şəklində təqdim olunub. Bundan əlavə, tədbir iştirakçıları gənc və istedadlı musiqiçi Elreinin ifasından zövq alıblar.

Heykəltaraş Teymur Qəribov kitab üçün kristal formasında xüsusi altlıq hazırlayıb, illüstrasiyalar isə rəssam Orxan Hüseynova məxsusdur.

Tədbirdən sonra hər bir qonağa kitab, həmçinin xanəndə Alim Qasımovun ifası və pianoçu İsfar Sarabskinin bəstəsindən ibarət musiqi albomu, “Nargis” jurnalının iyun buraxılışı, poster və açıqcalar hədiyyə olunub.

“Əlifba: A Cultural Alphabet” kitabını tezliklə Berlinin kitab mağazalarında da əldə etmək mümkün olacaq.

Qeyd edək ki, “Əlifba: A Cultural Alphabet” layihəsi 2019-cu ildə İstanbulda keçirilən təqdimat ilə başlayıb. Kitabın birinci buraxılışı Azərbaycan, türk, ingilis və rus dillərində təqdim olunmuşdu.

# Fransanın azərbaycanlı qəhrəmanı

## “O, Xarqo idi” filmi Parisdə nümayiş etdirilib



Parisdə Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzində İkinci Dünya müharibəsi zamanı antifaşist Müqavimət hərəkatının məşhur nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Cəbrayılova (1920–1994) həsr olunmuş “O, Xarqo idi” adlı sənədli film nümayiş etdirilib.

Mədəniyyət Nazirliyinin “Salnaməfilm” studiyasının istehsalı olan filmin təqdimatında ölkəmizin Fransadakı səfiri Leyla Abdullayeva, Fransanın Azərbaycandakı keçmiş səfirləri Jan Perrən və Şantal Puare, Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev, filmin ssenari müəllifi və rejissoru Tahir Tahiroviç, Əhmədiyyə Cəbrayılovun nəvəsi Müşfiq Cəbrayılov, eləcə də yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Səfir Leyla Abdullayeva çıxışında Azərbaycanın İkinci Dünya müharibəsi zamanı faşizm üzərində qələbəyə verdiyi mühüm hərbi, iqtisadi töhfələrdən danışıb. Sovet ordusunun yanacaq ehtiyacının 90 faizinin Bakı nefti hesabına təmin edildiyi diqqətə çatdırılıb. Diplomat Əhmədiyyə Cəbrayılovun Fransanın azadlığı uğrunda mübarizəsindən, Müqavimət hərəkatında fəaliyyətindən, bu ölkənin Tarn və Qaron departamentində partizanlara qoşulması və müxtəlif əməliyyatlarda qəhrəmanlığından danışıb.

Sonra sənədli film nümayiş olunub.

Rejissor Tahir Tahiroviç əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illiyi ilə bağlı Prezident İlham Əliyevin sərəncamına əsasən keçirilən silsilə tədbirlər çərçivəsində bu filmin lentə alınmasından, onun yaranması ideyasından, ekran əsərində hər bir hadisənin arxiv materiallarına əsaslanmasından bəhs edib.

Əhmədiyyə Cəbrayılovun nəvəsi Müşfiq Cəbrayılov babası ilə bağlı xatirələrindən danışıb.

Fransanın Azərbaycandakı keçmiş səfirləri Jan Perrən və Şantal Puare ölkəmizdə olduqları zaman Fransa qəhrəmanı Ə.Cəbrayılovun doğma şəhəri Şəkiyə səfərlərindən, Əhmədiyyə ilə birgə partizan hərəkatında olmuş Rene Şambarın Şəkidə dostunun qəbrini ziyarət etməsindən söz açıblar.

Həyat yoldaşı Fransanın Azərbaycandakı səfirliyində işləmiş Aleksanr Vattən Fransanın azadlığı uğrunda mübarizə aparmış azərbaycanlı partizanlarla bağlı arxivlərdə işləməsindən, onlarla bağlı hazırladığı kitabdan bəhs edib.

Tədbir çərçivəsində müharibə vaxtı azərbaycanlı əsgərlə ailə qurmuş, Azərbaycanda yaşamış və 50 ildən sonra ölkəsinə səfər etmiş fransız İvon Bottonun xatirəsi də yad edilib.

# CAR-da “Xarıbülbül” rəqs qrupu

Cənubi Afrika Respublikasında (CAR) ilk Azərbaycan diaspor təşkilatı yaradılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Azərbaycan–CAR Mədəniyyət Assosiasiyası Pretoriya şəhərində yaşayan həmyerlimiz, xoreoqraf Azər Mirzəyev tərəfindən təsis olunub və qeydiyyatdan keçirilib.

Assosiasiyanın nəzdində “Xarıbülbül” rəqs qrupu fəaliyyət göstərir. Qrupa yerli xalqların nümayəndələri cəlb olunublar.

Azər Mirzəyev uzun illərdir CAR-da yaşayır və milli rəqslərimizin müxtəlif yarışlarda təbliği ilə məşğuldur.



# Mədəniyyət Yoluna Trabzon ev sahibliyi edir

Türkiyədə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə üç aydır davam edən Mədəniyyət Yolu Festivalının növbəti ünvanı yenə Qara dəniz bölgəsidir. Bir öncəki məkan – Samsundan sonra festivala 22–30 iyun tarixlərində Trabzon ev sahibliyi edir.




Festivalın açılış mərasimində Trabzon Böyükşəhər Bələdiyyəsinin başqanı Əhməd Metin Gənc, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslan, Trabzon valisi Əziz Yıldırım və digər rəsmilər iştirak ediblər.

Trabzonun tarixi və mədəni irsi ilə seçilən qədim şəhər olduğunu deyən Əhməd Metin Gənc bildirib ki, eyni zamanda hər şəhərin öz gözəlliyi və özəlliyi var. Trabzonun da üç əsas tanıtım nişanı tarix, mədəniyyət və incəsənət şəhəri olmasıdır. Festivalın növbəti dəfə Trabzonda keçirilməsinə görə Mədəniyyət və Turizm Nazirliyinə təşəkkür edən bələdiyyə başqanı mədəniyyət bütün sahələrini bir araya gətirən layihənin əhəmiyyətini vurğulayıb.

Nazir müavini Nadir Alpaslan da Trabzonun ikinci dəfə festivala ev sahibliyi etdiyini diqqətə çatdıraraq 9 gün ərzində şəhərdəki 40 məkanda ümumilikdə 500-dən çox tədbirin keçiriləcəyini deyib. Bildirib ki, Trabzon builki Mədəniyyət Yolunun beşinci məkanıdır, irəlidə isə daha 11 şəhər var.

Trabzondakı Atatürk meydan parkında (Atatürk alanı – Qazi Mustafa Kamal 15 sentyabr 1924-cü ildə Trabzona səfəri zamanı burada xalqa xitab edib) təşkil edilən açılış mərasimində çıxışların ardından ənənəvi horon rəqsi (Qara dəniz bölgəsində oynanılan xalq rəqsi) nümayiş olunub. Hamamizade İhsan bəy Mədəniyyət Mərkəzində rəsm sərgisi açılıb. “Mehtər marşı”nın sədaları altında Trabzon Şəhər Muzeyinə yürüş olub. Festivalın daha bir sərgisi şəhərdəki qədim Qızlar monastırı binasında təşkil edilib. Festival proqramına silsilə konsertlər, sənətçilərlə görüşlər, bölgənin zəngin mətbəxinin təqdimatı və s. tədbirlər daxildir.

Qeyd edək ki, aprel ayında Adanada başlayan Mədəniyyət Yolu Festivalı Şanlıurfa, Bursa və Samsunda davam edib. Tranzondan sonra festivalın marşrutu 29 iyun – 7 iyul tarixlərində Van, ardınca 3–11 avqustda Nevşehir, 17–25 avqustda Ərzurum olacaq. Çanaqqala, Qaziantep, Ankara, Konya, İstanbul, Diyarbəkir və İzmirdən də keçəcək Mədəniyyət Yolu noyabrda Antalyada başa çatacaq.

# Ayasofyanın elektron surəti yaradılıb

İstanbuldakı dünyaca məşhur Ayasofya məbədinin elektron surəti yaradılıb. Bu, 15 əsr tarixi olan tikili zəlzələ zamanı hətta dağılsa belə, onun bərpasına imkan verəcək.



Layihə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi nəzdində Fondlar Baş İdarəsi tərəfindən həyata keçirilib. Mütəxəssislər iki il ərzində binanın, demək olar ki, hər kvadratsantimetrini skan edərək Ayasofyanın “elektron kloun”unu yaradıblar.

“Biz istəyirik ki, Ayasofya 500 ildən sonra da bugünkü kimi qalsın. Toplanmış məlumatlar sayəsində təbii fəlakətlərdən ciddi ziyanın dəyəcəyi təqdirdə, tikilinin memarlıq görünüşünün bərpası mümkün olacaq”, – deyə Fondlar Baş İdarəsinin nümayəndəsi Şengül Koncagül jurnalistlərə bildirib.

İstanbulun tarixi simvollarından olan Ayasofya 537-ci ildən bu yana pravoslav kilsəsi, katolik kilsəsi, məscid, muzey kimi fəaliyyət göstərib. 1985-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilən Ayasofya İstanbula gələn turistlərin ilk dayanacaq nöqtəsidir. Buraya gələnlərin bir qismi namaz qılarkən, bir qismi də ölçüsü və funksionallığı ilə dünya memarlığında mühüm yer tutan bu tikili ilə yaxından tanış olur.

Təbii fəlakətlərlə də sınanan (984-cü ildə qübbəsi uçmuş, sonra bərpa olunmuşdu) məbəd Səlib yürüşlərinin (Roma Katolik Kilsəsinin Yaxın Şərqə hərbi yürüşləri) də hədəfinə çevrilib və 1204–1261-ci illərdə katolik kilsəsi kimi fəaliyyət göstərib. İstanbulun (o vaxt Konstantinopol) yenidən Bizans İmperatorluğunun tərkibinə qatılması ilə təkrar pravoslav kilsəsi olub.

1453-cü ilin 29 mayında Osmanlı padşahı II Mehmet (Fateh Sultan Mehmet) tərəfindən İstanbul fəth olunur. Fəthdən sonra Sultan Mehmet Ayasofyaya gələrək ilk cümə namazını burada qılır və məbədin məscid kimi fəaliyyət göstərəcəyini bildirir. 1481-ci ildə Ayasofyanın ilk minarəsi ucaldılır, sonra müxtəlif tarixlərdə daha 3 minarə inşa edilir.

Türkiyədə Cümhuriyyət qurulduqdan (1923) sonra da Ayasofya bir müddət məscid kimi fəaliyyət göstərib. 1930-cu ildə bərpa işləri ilə bağlı müvəqqəti olaraq bağlanıb. 1934-cü ildə hökumət Ayasofyanın muzeyə çevrilməsi barədə qərar qəbul edib. 2020-ci ildən isə məbəd yenidən məscid kimi fəaliyyətinə davam edir...

## Xronoqraf

**26 iyun** Azərbaycan Silahlı Qüvvələri Günüdür. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyətinin Hökuməti ilk əlahiddə diviziyanın yaradılması barədə qərar qəbul edib. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Silahlı Qüvvələr Günü elan edilib.

### 106 il əvvəl...



**24 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı qəbul edilib. Fətəli xan Xoyskinin başçılıq etdiyi Nazirlər Şurasının qərarı ilə qırmızı parça üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmiş bayraq Cümhuriyyətin müvəqqəti dövlət rəmzi elan edilib. Azərbaycanın indiki üçrəngli bayrağı 1918-ci ilin 9 noyabrında qəbul olundu.

**27 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası “Dövlət dili haqqında” qərar qəbul edib. Azərbaycan (türk) dili ölkə ərazisində dövlət dili elan olunub.

### 86 il əvvəl...

**24 iyun 1938-ci ildə** I çağırış Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirilib. 310 nəfərlik parlamentə 107 fəhlə, 88 kolxozçu və 115 ziyalı-qulluqçu seçilmişdi. Deputatların 72-si qadın idi. Kommunist Partiyasının bütün dövlət funksiyalarını mənimsədiyi şəraitdə Ali Sovet qanunverici orqan olaraq formal fəaliyyət göstərirdi.

# Tarixdə bu gün



## Olaylar, faktlar (24 – 27 iyun)

### 64 il əvvəl...



**25 iyun 1950-ci ildə** Koreya müharibəsi başlayıb. Şimali Koreyanın (KXDR) qoşunları demarkasiya xəttini keçərək Cənubi Koreya (Koreya Respublikası) ərazisinə daxil olublar. 1948–1949-cu illərdə Şimali və Cənubi Koreya ərazisindən SSRİ və ABŞ-ın qoşunları çıxandan sonra iki ölkə arasında 38-ci paralel üzrə demarkasiya xətti çəkilmiş, Pxenyan Moskvanın, Seul isə Vaşinqtonun təsiri altında qalmışdı. Üç il sürən müharibə sərhədin 38-ci paralel üzrə bərpası ilə yekunlaşdı. Hər iki tərəfdən ümumilikdə 1,5 milyon nəfər həlak olmuşdu.

### 49 il əvvəl...

**25 iyun 1975-ci ildə** Portuqaliyanın müstəmləkəsi olan Mozambik müstəqilliyini elan edib. Afrikanın cənub-şərqində ən böyük dövlət (ərazisi 802 min kv km) olan Mozambik qitədə müstəmləkəçiliyin son dayaqlarından idi.

### 32 il əvvəl...

**25 iyun 1992-ci ildə** İstanbulda Türkiyə Prezidenti Turqut Özalın təşəbbüsü ilə keçirilən konfransda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı təsis edilib. Yeni regional təşkilatın yaradılması barədə “İstanbul bəyannaməsi”ni 9 ölkə (Türkiyə, Rusiya, Ukrayna, Moldova, Rumıniya, Albaniya, Gürcüstan, Azərbaycan, Ermənistan) imzalayıb. 1995-ci ildə Yunanıstan, 1997-ci ildə Bolqarıstan, 2004-cü ildə Serbiya təşkilata üzv oldu.

### 31 il əvvəl...

**24 iyun 1993-cü ildə** parlamentdə ölkədəki siyasi böhran müzakirə olunub. İyunun 18-də Bakını tərk edərək Ordubad rayonunun Kələki kəndinə getmiş Prezident Əbülfəz Elçibəylə danışıqlardan qayıdan ziyalı heyətinin məlumatı dinlənilib. Elçibəyin Bakıya dönmək istəmədiyini nəzərə alan parlament, Konstitusiyanın müvafiq maddəsinə əsasən, Prezident səlahiyyətlərinin Ali Sovetin sədrinə (Heydər Əliyev) verilməsi barədə qərar qəbul edib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1445
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641